Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



# BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: HAMİLƏLİK VƏ DOĞUŞ ZAMANI KİŞİLƏRİN CƏLB EDİLMƏSİ ÜZRƏ

RESURS KİTABÇASI

# BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: HAMİLƏLİK VƏ DOĞUŞ ZAMANI KİŞİLƏRİN CƏLB EDİLMƏSİ ÜZRƏ RESURS KİTABÇASI

**BİRLİKDƏ GENDER STEREOTİPLƏRİNƏ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI**

#eu4genderequality

**Redaktor:** Karine Lepillez, aparıcı gender müşaviri, Inclusive Societies (İnklüziv Cəmiyyətlər)
**Töhfə verən digər şəxslər:**
Klara Alemann, proqram direktoru, Promundo-US
Çe Nembard, proqramlar üzrə müşavir, Promundo-US
**Rəyçilər:**
Ciovanni Lauro, proqram və tədqiqatlar üzrə vitse-prezident, Promundo-US Nurgul Kinderbayeva, gender üzrə proqram mütəxəssisi, BMT-nin Əhali Fondunun Şərqi Avropa və
Mərkəzi Asiya üzrə Regional Ofisi
Teymur Seyidov, cinsi və reproduktiv sağlamlıq üzrə proqram mütəxəssisi, BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisi
Olqa Osaulenko, "Avropa İttifaqı gender bərabərliyi uğrunda" birgə layihəsinin proqram meneceri, BMT-nin Qadınlar üzrə Agentliyi /BMT-nin Əhali Fondu
Bəhicə Əliyeva, BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyi
Xalisə Şahverdiyeva, BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyi
Olqa Lukaşkova, BMT-nin Əhali Fondunun Belarus nümayəndəliyi
Aleksandr Davidzenka, BMT-nin Əhali Fondunun Belarus nümayəndəliyi
Marika Kurdadze, BMT-nin Əhali Fondunun Gürcüstan nümayəndəliyi
Corc Mataradze, BMT-nin Əhali Fondunun Gürcüstan nümayəndəliyi
Violeta Terguta, BMT-nin Əhali Fondunun Moldova nümayəndəliyi
Evgeniya Berzan, BMT-nin Əhali Fondunun Moldova nümayəndəliyi
Nataliya Koşovska, BMT-nin Əhali Fondunun Ukrayna nümayəndəliyi
Valeriya Taran-Gayduk, BMT-nin Əhali Fondunun Ukrayna nümayəndəliyi
Bohdan Pidverbetski, BMT-nin Əhali Fondunun Ukrayna nümayəndəliyi

Bu vəsait Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT-nin Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondu
tərəfindən birlikdə həyata keçirilən "Avropa İttifaqı Gender Bərabərliyi naminə: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı" proqramı çərçivəsində tərtib edilib.

Sənəddə əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və Avropa İttifaqının, BMT-nin Əhali Fondunun və ya BMT-nin Qadınlar üzrə Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

# MÜNDƏRİCAT

İXTİSARLAR 5
GİRİŞ 6
ÜMUMİ MƏLUMAT 7
RƏHBƏR PRİNSİPLƏR 7
BU KİTABÇADAN NECƏ İSTİFADƏ ETMƏLİ ? 8
DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN GƏLİŞLƏR 9
DOĞUŞA QƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN GƏLİŞLƏR ZAMANI KİŞİLƏRLƏ İŞƏ DAİR RƏHBƏR QAYDALAR 9

YOXLAMA SİYAHISI: DOĞUMÖNCƏSİ MÜAYİNƏ ZİYARƏTLƏRİ ZAMANI VALİDEYNLƏRƏ VERİLMƏLİ RESURSLAR VƏ MƏLUMATLAR 13

DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ KİŞİLƏRLƏ KONSULTASİYA ZAMANI DAXİLİ QƏRƏZİN ARADAN QALDIRILMASI ÜÇÜN ÜSULLAR 14

DOĞUŞ 16
DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ VƏ DOĞUŞ ZAMANI KİŞİLƏRİN CƏLB EDİLMƏSİ ÜÇÜN RƏHBƏR QAYDALAR

TÖVSİYƏ VƏRƏQİ: DOĞUŞ ZAMANI KİŞİLƏRİN ROLU

ÜNSİYYƏT STRATEGİYALARI 21
PARTNYORU HAMİLƏ OLAN GƏLƏCƏK ATALARI CƏLB ETMƏK ÜÇÜN 5 SUAL 21
DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN GƏLİŞLƏRDƏ KİŞİLƏRİN CƏLB OLUNMASI İLƏ BAĞLI PROBLEMLƏRİN HƏLLİ ÜÇÜN NÜMUNƏVİ STRATEGİYALAR VƏ CAVAB TƏDBİRLƏRİ 21

DOĞUMAQƏDƏRKİ DÖVRDƏ KİŞİ MÜŞTƏRİLƏRLƏ ÜNSİYYƏTDƏİSTİFADƏ EDİLMƏLİ NÜMUNƏVİ İFADƏLƏR 25

GENDER ƏSASLI ZORAKILIQ VƏ GENDER ƏSASLI DİGƏR RİSKLƏR 26
AŞKARLAMA ALƏTİ: HAMİLƏLİK DÖVRÜNDƏ İNTİM PARTNYOR ZORAKILIĞINI AŞKAR ETMƏK VƏ MÜVAFİQ TƏDBİR GÖRMƏK ÜÇÜN ATILMALI ADDIMLAR 26

HAMİLƏLİK MÜDDƏTİNDƏ ZORAKILIĞA MƏRUZ QALMIŞ OLA BİLƏCƏK QADINLARIN MÜƏYYƏN EDİLMƏSİ 27

KİŞİLƏRİN DOĞUM ÖNCƏSİ QULLUQDA İŞTİRAKI İLƏ BAĞLI NƏZƏRƏ ALINMALI RİSKLƏRİN SİYAHISI 29

SURROQAT ANALIQ 30
SURROQAT ANA CƏLB EDƏN ATALAR ÜÇÜN TÖVSİYƏLƏR 30

TİBB MÜƏSSİSƏSİNİN QİYMƏTLƏNDİRMƏLƏRİ 31
DOĞUM ÖNCƏSİ QULLUQDA ATANIN İŞTİRAKININ SÜRƏTLİ QİYMƏTLƏNDİRİLMƏSİ 31

DOĞUM ÖNCƏSİ VƏ DOĞUŞ ZAMANI QULLUQDA ATANIN İŞTİRAKININ SÜRƏTLİ QİYMƏTLƏNDİRİLMƏSİ 35

TİBB MÜƏSSİSƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR ANKET 39

SİYASƏT VƏ PROSEDURLAR 43
KİŞİLƏRİN CƏLB OLUNMASI ÜZRƏ NÜMUNƏVİ SİYASƏT

ÜST-ün SİYASƏT VƏ TƏCRÜBƏLƏRLƏ BAĞLI TÖVSİYƏLƏRİ 48

# İXTİSARLAR

| | |
|---|---|
| **VCT** | Vətəndaş cəmiyyəti təşkilatı |
| **GƏZ** | Gender əsaslı zorakılıq |
| **ŞAMA** | Şərqi Avropa və Mərkəzi Asiya |
| **ŞAMARO** | Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofis |
| **Aİ** | Avropa İttifaqı |
| **İİV** | İnsanın immunçatışmazlığı virusu |
| **ICPD** | Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans |
| **BPVF** | Beynəlxalq Planlı Valideynlik Federasiyası |
| **İPZ** | İntim partnyor zorakılığı |
| **AYUS** | Ana, yenidoğulmuş və uşaqların sağlamlığı |
| **CRS** | Cinsi və reproduktiv sağlamlıq |
| **CYİ** | Cinsi yolla ötürülən infeksiyalar |
| **BMTƏF** | BMT-nin Əhali Fondu |
| **BMT Qadınlar** | BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi Məsələləri üzrə Agentliyi |
| **KKM** | Könüllü konsultasiya və müayinə |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |

# GİRİŞ

Səhiyyə sektoru ataların uşaqlara və analara qayğı işinə erkən cəlb olunnmasını təşviq etmək üçün mühüm başlanğıc nöqtəsini əşkil edir. Lakin ana və uşaqların sağlamlığı üçün xidmət göstərən tibb işçiləri əsasən ana və uşaqlarla kommunikasiyada olur və çox vaxt kişiləri qadınlara dəstək göstərməyə və uşaqların özünə qayğı göstərməyə cəlb etmirlər. Tədqiqatlar[1] göstərir ki, atalar və səhiyyə sektoru arasındakı əlaqə təkamül edir, kişilər önəmli mənəvi dəstək və qayğı mənbəyi kimi getdikcə daha çox qəbul edilir və atalarla körpələri arasında hətta doğuşdan əvvəl erkən bağlılığın əhəmiyyəti qəbul edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) hamiləlik və doğum müddətində qadınların özünə qulluq etməsinə dəstəyin göstərilməsi, qadınlara evdə xidmət təcrübəsinin yaxşılaşdırılması, hamiləlik və doğum zamanı səriştəli xidmətdən istifadənin yaxşılaşdırılması və mamalıq və yenidoğulmuşlarla bağlı ağırlaşmalar üçün müəssisə xidmətindən vaxtında istifadənin artırılması üçün kişilərin cəlb olunmasını tövsiyə edir.[2]

Səhiyyə sektoru ataların qayğı işində iştirakının və öz partnyorları ilə birgə məsuliyyəti bölüşməsinin sürətlə genişləndirilməsində mühüm rol oynaya bilər. Ümumən, bunun üçün aşağıdakılar tələb olunur:

- Atalarla və qayğı işinə cəlb olunan kişilərlə iş qaydasına dair daha aydın təlimatlar və protokollar.
- Kişilərin atalıqda və cütlüyün cinsi və reproduktiv sağlamlığında iştirakını stimullaşdıran daha çox maarifləndirmə kampaniyalarının mövcudluğu və gözləmə zalında müvafiq materialların yerləşdirilməsi.
- Kişilər qəbul otağında olduqda, onları öz iştirakını davam etdirməyə həvəsləndirmək. Onlar olmadıqda isə, anaları ataları gətirməyə həvəsləndirmək, o şərtlə ki, analar özünü təhlükəsiz hiss edir, razılıq verir, onların münasibətləri qeyri-zorakıdır və atanın cəlb olunması mümkündür.
- Kontekstə uyğun dəstək və istiqamətləndirmənin təmin edilməsi: ana tək olduqda və ata ilə əlaqədə olmadıqda;valideynlər ayrılmış olduqda; valideynlər yeniyetmə olduqda - onların məktəb təhsilini tərk etmədən uşağa qulluq edə bilməsini təmin etmək üçün; valideynlərdən biri və ya hər ikisi əlil olduqda; cütlük arasında münaqişə, qadınlara qarşı zorakılıq, narkotik maddələrdən istifadə, yaxud psixi sağlamlıq problemləri olduqda.

Təqdim olunan resurs kitabçası Şərqi Avropa və Mərkəzi Asiyada (ŞAMA) səhiyyə işçilərinə kişiləri onların partnyorları və uşaqlarının sağlamlığı və rifahını yaxşılaşdırmaq, habelə onların öz sağlamlığı, rifahı, bağlılıq qurmaq qabiliyyəti və bağlılıq hisslərini yaxşılaşdırmaq üçün hamiləlik və doğum müddətində daha yaxşı cəlb etməkdə kömək etmək üçün nəzərdə tutulur.

---

[1] Tokhi M, Comrie-Thomson L, Davis J, Portela A, Chersich M, Luchters S (2018) Involving men to improve maternal and newborn health: A systematic review of the effectiveness of interventions. PLoS ONE 13(1): e0191620.

[2] ÜST (2015) Recommendations on health promotion interventions for maternal and newborn health (Ana və yenidoğulmuşların sağlamlığı üçün səhiyyə xidmətinin təşviqi üzrə tədbirlərə dair tövsiyələr).
Burada: https://apps.who.int/iris/bitstream/handle/10665/172427/9789241508742_report_eng.pdf

## ÜMUMİ MƏLUMAT

Bu resurs kitabçası Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, BMT-nin Qadın Qurumu və BMT-nin Əhali Fondu tərəfindən Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukraynada birgə həyata keçirilən "Avropa İttifaqı Gender bərabərliyi uğrunda: Gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı birgə mübarizə" layihəsi çərçivəsində ərsəyə gəlmişdir. Proqramın məqsədləri aşağıdakılardır:

1. Qadın hüquqlarını məhdudlaşdıran gender stereotipləri və patriarxal normalarla bağlı ictimai düşüncələrin dəyişdirilməsi;
2. Uşağa qayğı işinə kişilərin cəlb olunmasının və onların atalıq proqramlarında iştirakının artırılması;
3. Sosial işçilərin (vasitəçilərin) və vətəndaş cəmiyyəti təşkilatlarının məişət zorakılığı törədən şəxslərə yönələn, zorakılığın önlənməsi ilə bağlısübut əsaslı proqramların həyata keçirilməsinə dair bilik və vasitələrin artırılması;

## RƏHBƏR PRİNSİPLƏR

Bu kitabçaya daxil edilən resurslar ataların və qayğı işinə cəlb olunan kişilərin aşağıdakı əlamətlərini təşviq edir:

1. Fəal və bəsləyici qayğı göstərən tərəf olmaq: uşaq dünyaya gətirməyi planlaşdırdıqda, hamiləlik dövründə, doğuş zamanı və doğuşdan sonrakı dövrdə;
2. Öz partnyoru ilə xoşbəxt, sağlam və qayğıkeş münasibətin formalaşdırılmasında və məişət işlərində bərabər və birgə öhdəlik götürmək;
3. Onlar heteroseksual, qey, biseksual və ya transgender şəxs olur; onlar öz partnyoru ilə birgə və ya ondan ayrı, yaxud valideynləri ilə yaşayır; övladlığa uşaq götürürlər; uşaq üzərində himayəyə malik olur;
4. Gender bərabərliyinə dəstək göstərmək və qadın və uşaq hüquqlarına dəyər vermək;
5. Qadın və uşaqlara qarşı zorakılığın istənilən formasına qarşı çıxmaq;

# BU KİTABÇADAN NECƏ İSTİFADƏ ETMƏLİ?

Bu resurs kitabçası peşəkar tibb mütəxəssisləri üçün hazırlanmışdır. Məqsəd onların kişilərlə hamiləlik və doğum müddətində iş aparmasına və fəal atalığı təşviq etməsinə kömək etməkdir.

Resurslar tematik sahələrə bölünərək, tibb mütəxəssislərinə ataları konsultasiya prosesinə daha yaxşı cəlb etməkdə, habelə klinika mühitində kişilərin tibbi ziyarətlərə gəlməsinə münbit şərait yaradan və kişilərin onları atalığa cəlb olunmaqdan çəkindirən normalar barədə refleksiya etməsi və müzakirə etməsi üçün gözləmə zalı kimi mühit yaratmaqda köməklik göstərmək üçün nəzərdə tutulur. Bu, həmçinin tibb mütəxəssislərinə öz müəssisələrinin siyasət və prosedurlarını, habelə kişilərin ana və uşaq sağlamlığına cəlb edilməsi ilə bağlı ümumi maarifləndirmədə uğurluluğunu qiymətləndirmək üçün vasitələr təmin edir. Tibb müəssisələrinin kişilərlə iş üçün sadə, inteqrasiyalı yanaşmaları necə hazırlaya biləcəyini göstərən tövsiyələr və alətlər təqdim edilir. Bununla belə, hər bir resurs kimi, kontekst çərçivəsində aydın və etibarlı olmasını təmin etmək üçün aşağıdakı alətlərin uyğunluaşdırılması və sınaqdan keçirilməsi tələb olunur.

## DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN GƏLİŞLƏR

Aşağıdakı bölmədə peşəkar tibb mütəxəssislərinə kişiləri cəlb etmək və bu zaman onların öz intim partnyorları ilə sağlam və bərabərhüquqlu münasibətini təşviq etmək üçün doğuşaqədərki dövrdə müayinə üçün ziyarətlər zamanı cari təcrübələrini qiymətləndirməkdə kömək edəcək alətlər təqdim edilir.

### DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN ZİYARƏTLƏR ZAMANI KİŞİLƏRLƏ İŞƏ DAİR RƏHBƏR QAYDALAR[3]

- Cütlüyün real sosial, iqtisadi və mədəni vəziyyətini anlayın. Elə atalar var ki, iştirak etmək istəsə də, iş qrafikləri və digər maneələr buna imkan vermir.
- Kişiləri gələcək valideynliyin çətinliklərinə hazırlayın və onları erkən cəlb edin.
- Kişilərə qayğı bacarıqlarını öyrənməklə və ev işlərinin daha çox hissəsini üzərinə götürməklə, partnyoru ilə yükü bərabər bölüşməyə həvəsləndirin.
- Atanı hamiləliyin müxtəlif mərhələləri barədə öyrənməyə, hamiləlik dövründə tibb müəssisəsində müayinə üçün gəlişlərdə fiziki olaraq və ya telefon/video zəng vasitəsilə iştirak etməyə həvəsləndirin. Bu, atanın növbəti gəlişlərdə iştirakına müsbət təsir edə bilər.
- Hamiləlik, doğuş və doğuşdansonrakı dövrdə qulluq məsələləri sadəcə ana və uşağın sağlamlığı ilə bağlı deyil. Ataya öz psixoloji və fiziki sağlamlığının qayğısına qalmağı və bununla da öz uşağının inkişafı üçün sağlam mühit yaratmağı tövsiyə edin.
- Alkoqollu içki və narkotik vasitələrdən istifadə, fiziki və psixoloji zorakılıq kimi qeyri-sağlam davranışlarla əlaqəli risklər barədə söhbət aparın. Ataya ana və uşağın sağlamlığına mənfi təsirlər barədə məlumat verin.

---

[3] Aşağıdakı mənbədən götürülüb və bir qədər uyğunlaşdırılıb: Promundo, CulturaSalud, and REDMAS (2013). Program P – A Manual for Engaging Men in Fatherhood, Caregiving, Maternal and Child Health (Kişilərin atalıq, qayğı, ana və uşaq sağlamlığına cəlb olunması). Promundo: Rio de Janeiro, Brazil and Washington, D.C. USA.

- Ana və ata arasında çox vaxt hamiləlik müddətində meydana çıxan narahatlıqları daha yaxşı həll etməyə imkan verən qarşılıqlı dəstək, əməkdaşlıq və dialoq yönümlü münasibətləri təşviq edin.

- Hamiləlik və onun cütlüyün cinsi həyatına təsiri ilə bağlı atanın sual və narahatlıqlarını həll edin.

- Gələcək hamiləliklərin planlaşdırılması, hamiləliklər arasında məsafənin yaradılması və ya doğuşdan sonrakı dövrdə hamiləliyin qarşısının alınması üçün kontraseptiv vasitələrdən istifadəni müzakirə edin. Doğuşlar arasında məsafənin yaradılması ilə bağlı ənənəvi metodların uğursuzluq risklərini, habelə tibb müəssisəsindən çıxmazdan əvvəl üstünlük verilən kontraseptiv xidmətləri və kontraseptiv vasitələrin harada və necə əldə edilə biləcəyini müzakirə edin.

- Həm ana, həm də ataya fövqəladə hallarda necə operativ və adekvat davranmağı, tibb müəssisəsinə gəlməyi şərtləndirən amilləri bilməyi və xidmətlərdən necə istifadə etməyi öyrədin.

- Hamiləlik dövründə ultrasəs müayinəsi kişilər üçün ekranda uşağını görmək və ürək döyüntülərini dinləmək üçün misilsiz bir fürsətdir. Buna görə də, ataların iştirakını

## ANA İNTİM PARTNYORU OLMADAN İŞTİRAK ETDİKDƏ

- İntim partnyorunun olub-olmadığını və varsa, onu müşayiət etməsinə razı olub-olmadığını soruşun. Əgər razıdırsa, onu partnyorundan sonrakı ziyarətlərdə və doğuş zamanı onu müşayiət etməsini xahiş etməyə həvəsləndirin.

- Ana partnyorunun onu müşayiət etməsini istəyirsə, onu necə dəvət edəcəyini və onun iştirakına imkan yaratmaq üçün hansı addımların atılmalı olduğunu (məsələn, partnyorunun iş qrafikini uyğunlaşdıra bilməsi üçün əvvəlcədən planlaşdırma) müzakirə edin. Ona, partnyoruna ünvanlanan bir məktub və ya broşura verməyi nəzərdən keçirin.

- Ana, partnyorunun onu müşayiət etməsini istəmirsə, onun bu istəksizliyinin münasibətlərdəki ifrat nəzarət və ya zorakılıqla əlaqəli olub-olmadığını öyrənə bilərsiniz və belə bir vəziyyət varsa, ona kömək edə biləcək gender zorakılığı ilə bağlı xüsusi xidmətlərə müraciət etməyi təklif edin. Əgər narahatlıqlar onun təhlükəsizliyi ilə bağlı deyilsə, məhdudiyyətlərin nə olduğunu öyrənə və onları mümkün qədər aradan qaldırmaq üçün bəzi yollar barədə birlikdə düşünə bilər, ataların erkən cəlb olunmasının vacibliyini bildirə bilərsiniz.

- Ana, partnyorunun onu müşayiət etməməsinə qərar verərsə, qərarına hörmət edin. Cütlüyün münasibətlərində ana sağlamlığına təsir göstərə biləcək hər hansı bir davranış və ya digər əlamətlərin olub-olmadığını öyrənməyi nəzərdən keçirin. İntim partnyor zorakılığının əlamətlərinin olub-olmadığına nəzər yetirin (bu vəsaitə birbaşa cavab aləti daxil edilmişdir). Zorakılığın mövcud olduğu halların idarə edilməsi üçün tibb müəssisənizin lazımi səviyyədə hazırlıq keçmiş heyətə və protokollara (məs.məişət zorakılığı mərkəzlərinə yönləndirmə) sahib olması vacibdir.

- Əgər partnyoru ananı müşayiət edə bilmirsə, onunla müayinələrə gələ biləcək digər önəmli şəxslərin kimlər ola biləcəyini müzakirə edin. Bəzi təcili olmayan doğumöncəsi qəbulların məsafədən aparılması da mümkündür. Bu, anaların partnyorunafiziki olaraq iştirak edə bilmədikləri hallarda bu formada iştirak imkanı verə biləcək.

- Partnyoru digər öhdəliklər səbəbilə ananı müayinələrdə müşayiət edə bilmirsə, ananı bütün məlumatlarını partnyoru ilə bölüşməyə və onu prosesə cəlb etməyə həvəsləndirin. Anaya çap edilmiş məlumatlar və ya asanlıqla paylaşıla bilən onlayn resurslara keçidlərlə təmin edin

## ANA ÖZ İNTİM PARTNYORU İLƏ İŞTİRAK ETDİKDƏ

- Həm ana, həm də ata ilə göz təması qurun.

- Hər ikisinə sual verərək və bütün mümkün suallarını cavablandıraraq məsləhətvermə zamanı atanı aktiv şəkildə cəlb edin. Kişilərlə bərabər səviyyəli tərəf müqabili kimi davranın; onlar ikinci dərəcəli iştirakçı deyillər.

- Hər iki valideyn üçün də həyəcan və sevincin artdığı anlardan (məs. ultrasəs müayinəsi zamanı) faydalanın. Bu əsas məqamlardan istifadə edərək ata və körpəsi arasındakı bağlılığı təşviq etmək üçün onu uşağın ürək döyüntülərini dinləməyə dəvət edin və atanın hər hansı bir sualına və ya narahatlığına diqqət yetirin.

- Atanı hamiləlik dövründə anaya emosional dəstək (məs. sevgi, empatiya) və fiziki dəstək (məs.ev işləri öhdəliyini bərabər bölüşmək) təmin etməyə həvəsləndirin.

- Doğuşdan əvvəl və sonra atanın gələcək müayinələrdə iştirakını təşviq edin.

- Atanı, ananın qarnına toxunmaq və ya masaj etmək, uşaqla danışmaq və musiqi dinətməklə, ana bətnində olan uşağı ilə ünsiyyət qurmağa təşviq edin.

- Hər iki valideyni hamiləliklə əlaqəli xəstəliklər, məsələn, hestasion şəkərli diabet, hestasion hipertoniya və sidik yolu infeksiyaları barədə maarifləndirin.

- Hər iki valideynə mamalıq yardımını şərtləndirən təxirəsalınmaz halların əlamətləri və simptomları barədə məlumat verin və təxirəsalınmaz hal baş verərsə, onlara əməl edilməli addımların siyahısını verin.

- Ana və atanın öz narahatlıqlarını açıq şəkildə ifadə edə biləcəyi etibarlı bir yer təmin edin və bu kimi mövzuları müzakirə etmək üçün kifayət qədər vaxt ayırın. Bu narahatlıqlardan bəzilərinə aşağıdakılar daxil ola bilər: sağlamlıq problemləri, maliyyə məsələləri, iş ilə əlaqəli məsələlər və cütlüyün münasibətləri ilə bağlı problemlər.

- Hamiləlik dövründə cütlüyün cinsi əlaqə ilə bağlı sual və ya narahatlıqlarını cavablandırın. Hər iki valideynə hamiləlik dövründə cinsi əlaqə ilə bağlı məlumat və tövsiyələr verin.

- Gələcək hamiləliklərin planlaşdırılması, hamiləliklər arasında məsafənin yaradılması və ya hamiləliyin qarşısının alınması üçün doğuşdan sonrakı dövrdə kontraseptiv vasitələrdən istifadəni müzakirə edin. Doğuşlar arasında məsafənin yaradılması ilə bağı ənənəvi metodların uğursuzluq risklərini, habelə tibb müəssisəsindən çıxmazdan əvvəl üstünlük verilən kontraseptiv xidmətləri və kontraseptiv vasitələrin harada və necə əldə edilə biləcəyini müzakirə edin.

- Ananı partnyoru ilə hamiləlik dövründəki təcrübələri (fiziki və emosional) barədə açıq danışmağa təşviq edin.

- Ana və partnyoru ilə, doğuş zamanı ananı müşayiət edən birinin olmasının faydaları barədə danışın.

## DOĞUŞA QƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN SONUNCU ZİYARƏT ZAMANI

- Anaya və onun intim partnyoruna aşağıdakıları bildirin:

- Doğuş zamanı ananı müşayiət edən şəxsin rolu və əhəmiyyəti, o cümlədən xəstəxanaya gətiriləcək şeylərin siyahısı (bax Tövsiyə vərəqi: Doğuş zamanı kişilərin rolu)

- Cütlüyün təyin edildiyi doğum evinin yeri.

- Qadının doğum zamanı müşayiət olunma hüququ barədə mövcud qanunlar və ya siyasətlər. Müşayiət edən şəxs ata ola bilər və ya ananın etibar etdiyi başqa bir şəxs ola bilər.

- Səhiyyə sistemi və ya icma əsaslı təşkilatların təqdim etdiyi valideyn hazırlığı kursları.

- Doğum evinin quruluşundan xəbərdar olmaq üçün doğuşdan əvvəl onu ziyarət etmək. Bu, xüsusilə əlilliyi olan analar və ya partnyorları üçün əsas otaqların və xidmətlərin əlçatan olmasını təmin etmək üçün vacibdir.

- Atalıq məzuniyyəti hüquqları ilə bağlı mövcud qanunlar. Cütlük birlikdə deyilsə, uşağın atasının qeydiyyatı qaydaları barədə onlara məlumat vermək.

## YOXLAMA SİYAHISI: DOĞUŞÖNCƏSİ MÜAYİNƏ ZİYARƏTLƏRİ ZAMANI VALİDEYNLƏRƏ VERİLMƏLİ RESURSLAR VƏ MƏLUMATLAR[4]

- Doğuş zamanı intim partnyorun rolu
- Yenidoğulmuş və ana üçün zəruri olan təxirəsalınmaz qulluq
- Uşağın mülki qeydiyyata alınması və doğum şəhadətnaməsini əldə etmə qaydası
- İşləyən cütlüklər üçün atalıq məzuniyyəti (mövcud olduğu halda)
- Səhiyyə sistemi tərəfindən cütlüklər və ailələr üçün təşkil edilən seminarlar haqqında məlumat
- Uşağın ilk sağlamlıq müayinəsinin harada və nə vaxt baş verəcəyi
- Qadınlarda doğuşdan sonrakı depressiyanın əlamətləri və ananın psixoloji sağlamlığının yaxşılaşmasına necə kömək ediləcəyi, həmçinin mövcud olduğu halda psixoloji sağlamlıq və ya psixoloji dəstək xidmətlərinə yönləndirmə ilə bağlı məlumatlar. Doğuşdan sonrakı depressiyanı daha çox rast gələnən və daha az ağır olan doğuşdan sonrakı sıxıntıdan fərqləndirən əlamətlər və yardım üçün nə vaxt müraciət etməli.
- Kişilərdə doğuşdan sonrakı depressiyanın əlamətləri və mövcud olduğu halda psixoloji sağlamlıq və ya psixoloji dəstək xidmətlərinə yönləndirmə məlumatları. Doğuşdan sonrakı depressiyanı daha çox rast gələnən və daha az ağır olan doğuşdan sonrakı sıxıntıdan fərqləndirən əlamətlər və yardım üçün nə vaxt müraciət etməli.
- Övlad sahibi olmağın partnyoru iləmünasibətlərə, o cümlədən onunla intim münasibətə təsiri Doğuşdan sonra ailə planlaşdırılması ilə bağlı seçimlər
- Hamiləlik, doğuş zamanı və doğuşdan sonrakı dövrdə kişilərin cəlb olunmasının faydaları
- haqqında flayerlər, broşuralar və ya digər maarifləndirici materiallar

[4]Aşağıdakı mənbədən götürülüb və bir qədər uyğunlaşdırılıb: Promundo, CulturaSalud, and REDMAS (2013). Program P – A Manual for Engaging Men in Father- hood, Caregiving, Maternal and Child Health. Promundo: Rio de Janeiro, Brazil and Washington, D.C. USA.

## DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ KİŞİLƏRLƏ KONSULTASİYA ZAMANI TİBB İŞÇİLƏRİNİN ÖZQƏRƏZİNİN ARADAN QALDIRILMASI ÜÇÜN ÜSULLAR[5]

Tibb mütəxəssisi doğuşa qədərki dövrdə konsultasiyalar zamanı öz daxili qərəzlərini, dəyərlərini və münasibətlərini dərk edərək və bunların onun heç bir qınaq nümayiş etdirmədən xidmətlər təklif etmə qabiliyyətinə təsir etməməsinə çalışaraq kişilərlə qarşılıqlı ünsiyyəti yaxşılaşdıra bilər. Xüsusi hazırlıq metodları tibb mütəxəssislərinin kişilərlə cinsi və reproduktiv sağlamlıq problemləri barədə danışmaq baxımından özlərini daha rahat hiss etmələrinə və hamiləlik dövründə kişilərin rolları və vəzifələri ilə bağlı öz daxili qərəz və mühakimələrindən xəbərdar olmalarına kömək edə bilər. Doğuşaqədərki xidmətlərin göstərilməsi zamanı tibb mütəxəssisinin daxili qərəzini aradan qaldırmaq üçün tibb müəssisələri aşağıdakıları nəzərə almalıdır:

- Kişilərin doğuşaqədərki dövrdə qayğıya konstruktiv şəkildə cəlb edilməsi ilə bağlı beynəlxalq səylərin səbəbi və bu işdə qazanılmış uğurlar (ana və uşaqlar, habelə atalar üçün daha yaxşı sağlamlıq və inkişaf nəticələri) barədə tibb mütəxəssislərini maarifləndirmək
- Tibb mütəxəssislərinə kişilərlə konsultasiyanın aparılması ilə bağlı öz qorxularını, narahatlıqlarını və/və ya daxili qərəzlərini səsləndirmək imkanı vermək
- Tibb mütəxəssislərinin təcrübələrini və kişilərlə işlə bağlı öyrəndikləri dərsləri bölüşməsi üçün davamlı bir müzakirə forumu yaratmaq
- Kişi müştərilərlə potensial mənfi və ya təhlükəli insidentlərin və ya qarşılıqlı təsirlərin aradan qaldırılması üçün təhlükəsizlik protokolları və prosedurlarıyaratmaq
- Tibb işçilərinə kontrasepsiya metodları, o cümlədən prezervativ, natamam cinsi əlaqə, təqvim metodu və vazektomiya da daxil olmaqla, kişilərin iştirakını tələb olunan metodlar barədə hazırlıq keçmək
- Kontrasepsiya ilə bağlı bütün konsultasiya proseslərində kişi kontraseptiv vasitələri haqqında qərəzsiz məlumatların əhatə edildiyinə əmin olmaq üçün tibb işçilərinə məlumatlı razılıq barədə hazırlıq keçmək
- Tibb işçilərinin diqqətini doğuşaqədərki dövrdə məsləhətvermə sessiyaları zamanı qadınlardan daha çox kişilərin sual və şərhlərinə dəstəkləyici formada cavab vermə tendensiyasına çəkmək və bu zaman qadınların özünəinamlı, dəyərli və dəstəkləndiklərini hiss etməyə ehtiyac duyduğu bir vaxtda onların öz bədəni və özü barədə qərarları vermək səlahiyyətinə xələl gətirməmək üçün ehtiyatlı olmaq.
- Qadın müştərinin tibbi vəziyyəti haqqında məlumatın məxfi saxlanılmasını və yalnız qadının icazəsi ilə və ya qanunla tələb olunduqda kişi partnyoru ilə paylaşılmasını təmin etmək
- Kişilərlə konsultasiya üçün onların konfidensiallığının qorunduğu xəlvətisahə yaratmaq
  Tibb işçilərinə bütün müştərilərin tibbi tarixçəsinin məxfiliyini təmin etməklə bağlı hazırlıq.

[5]Aşağıdakı mənbədən bir qədər uyğunlaşdırılıb: Counseling and Communicating with Men (Kişilərlə konsultasiya və ünsiyyət). USAID, New York, NY.

## HAMİLƏLİK DÖVRÜNDƏ HƏKİMƏ NƏ ZAMAN MÜRACİƏT ETMƏLİ [6]

Şübhə olduqda hamilə partnyorunuzun yaşadığı simptomları və narahatlıqlarınızı izah etmək üçün sizə xidmət edən tibb bacısı, mama və ya həkiminizə müraciət etmək həmişə faydalı olacaqdır. Bununla belə, elə simptomlar da var ki, mütləq həkimə müraciət etməyi tələb edir və təcili tibbi yardımı şərtləndirən bir vəziyyəti göstərə bilər. Bunlar aşağıdakılardır:

- Ağır vaginal qanaxma
- Hərarət, ağrı və/və ya üşütmə ilə müşayiət olunan vaginal qanaxmalar
- Ağrılı sidik ifrazı
- Çanaq nahiyənizdə qəfil və kəskin ağrı
- Çanaq nahiyənizdə hər hansı davamlı ağrı
- Hərarət və ya ağrı ilə müşayiət olunan qusma
- Gündə bir neçə dəfə qusma
- 38.8 dərəcədən yüksək hərarət
- Qıcolmalar
- Huşunu itirmək və ya özündən getmək

18-25-ci həftələr arasında hamilə yoldaşınız döldə hərəkət hiss etməyə başlayacaq. Hamilə qadınların körpələrinin hərəkətlərini mütəmadi olaraq saymaları tövsiyə olunur. Burada hədəf hər gün iki saat ərzində 10 hərəkət hiss etməkdir. Hamilə yoldaşınız körpənin uzun müddət tərpənmədiyini və ya normaldan çox az tərpəndiyini hiss edərsə, həkimə müraciət etmək faydalı ola bilər. Çox vaxt körpə sadəcə yatır. Ancaq bu da tibbi müdaxilənin lazım olduğuna işarə edə bilər.

20-ci həftədən sonra (lakin daha çox 34-cü həftədən sonra) yüksək qan təzyiqinin səbəb olduğu preeklampsiya əlamətlərinin olub-olmadığına nəzarət edə bilərsiniz. Preeklampsiya vaxtından qabaq doğuşun ən çox rast gəlinən səbəblərindən biridir və hamilə qadınlar üçün nadir hallarda infarkt, qıcolma və ürək çatışmazlığı kimi ağırlaşmalara səbəb ola bilər. Simptomlara aşağıdakılar daxildir:

- Kəskin baş ağrısı
- Üzün, əllərin və ya ayaqların qəfil şişməsi
- Bulanıq görmə, ləkələr görmək və ya zəif görmə kimi yeni görmə problemləri

Hamiləliyin son ayı ərzində yoldaşınızda doğumun başlanğıc əlamətləri meydana çıxarsa, xəstəxanaya nə vaxt getməli olduğunuzu öyrənmək üçün tibb bacınıza, mama ya da həkiminizə zəng edin. Onlar çox güman ki, doğumun aşağıdakıların daxil olduğu aktiv əlamətlərini görənə qədər gözləməyi deyəcəklər.

- Mütəmadi sancılar
- 5 dəqiqədən az ara ilə baş verən və ən azı 45-60 saniyə davam edən sancılar
- Söhbət etməyin çətinləşdiyi dərəcədə intensiv baş verən sancılar

[6] Aşağıdakı mənbədən bir qədər uyğunlaşdırılmışdır: https://myhealth.alberta.ca/Health/aftercareinformation/pages/conditions.aspx?hwid=abo6400, https://www.webmd.com/baby/preeclampsia-eclampsia#1

## DOĞUŞ

Aşağıdakı hissədə doğuş zamanı kişilərin cəlb edilməsi üçün tövsiyələr verilir, o cümlədən kişilərin doğum prosesindəki rolları ilə bağlı ola biləcək ümumi suallar və narahatlıqları əhatə edilir.

## DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ VƏ DOĞUŞ ZAMANI KİŞİLƏRİN CƏLB EDİLMƏSİ ÜÇÜN RƏHBƏR QAYDALAR[7]

### DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ VƏ DOĞUŞ ZAMANI

- Anadan doğuş zamanı kim tərəfindən müşayiət edilmək istədiyini soruşun. Milli qanunvericiliyin ananın doğuş zamanı müşayiət olunma hüququnu qoruyub-qorumadığını nəzərə alın (Qeyd etmək lazımdır ki, COVID-19 ilə bağlı qaydalar anaların doğuşda müşayiət olunmasını qadağan edə bilər; ən yeni qaydalardan mütləq xəbərdar olun)
- Ananın razılığı ilə və cütlüyün münasibətinin zorakı olmadığı halda, partnyoruna bildirin ki, onun doğuşdan əvvəl və doğuş zamanı iştirakı və dəstəyi ana və körpə üçün vacibdir.
- Partnyoruna fəal şəkildə necə iştirak edə biləcəyinə dair konkret təlimatlar verin. Məsələn, ananın xəstəxana çantasını yığmağa kömək etmək, ananın narahatlıqlarını fəal şəkildə dinləyərək emosional dəstək vermək və fiziki gərginliyi və stresi azaltmaq üçün onu masaj etmək.
- Partnyorunu doğum otağında nələr olacağı və ananı necə fəal şəkildə dəstəkləyə biləcəyi barədə məlumatlandırın (məs. nəfəs almasına kömək etmək, ruhlandırıcı sözlər demək, masajla ağrıları yüngülləşdirmək və s.). Partnyoru otaqda elə bir yerdə olmalıdır ki, anaya sevgi və dəstək verə biləcəyini hiss etsin.
- Doğuşdan sonra ən qısa müddətdə partnyorun övladı ilə təmasda olmasını təmin edin. Ondan göbək ciyəsini kəsmək və uşağın çəkisinin ölçülməsində və anaya verilməsində kömək etmək istəyib-istəmədiyini soruşun.

### DOĞUŞDAN SONRAKI DÖVRDƏ

- Ananın və atanın və ya partnyorunun körpə ilə mənəvi bağlılığını təşviq edin və hər bir valideynin bunu edə bilməsi üçün uşaqla təkbətək vaxt keçirməsini təmin edin.
- Ana qeysəriyyə kəsiyi əməliyyatı keçirdikdə və körpə ilə dəri təmasını həyata keçirə bilmədikdə, onun partnyorunun doğuşdan sonra uşaqla fiziki təmasda olmasını təmin edin.
- Otaqdakı bir tibb işçisinin ananın partnyoruna körpəni necə tutmağı göstərməsini (onun ilk uşağıdırsa) təmin edin.
- Hər iki valideynə uşağın üzərində aparılacaq rutin tibbi prosedurları həm əvvəlcədən, həm də prosedurlar yerinə yetirilərkən tam izah edin.
- Partnyor özünü övladı ilə fiziki təmasda olmağa hazır hiss etmirsə, israr etməyin. Onların özünü fiziki baxımdan rahat hiss etməsi üçün bəzən saatlar və hətta günlər tələb oluna bilər.

---

[7]Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: Promundo, CulturaSalud, and REDMAS (2013). Program P – A Manual for Engaging Men in Father- hood, Caregiving, Maternal and Child Health. Promundo: Rio de Janeiro, Brazil and Washington, D.C. USA.

### CÜTLÜK XƏSTƏXANADAN BURAXILDIQDA

- Valideynlər doğum evini tərk etməzdən əvvəl onlara prosesdəki əməkdaşlığına görə təşəkkür edin və onları təqdir edin və partnyoruna iştirakına görə təşəkkür edin.
- Həm ananı, həm də onun intim partnyorunu yenidoğulmuşlara qulluq barədə məlumatlandırın və onlar çıxarkən maarifləndirici materiallara malik olduqlarından əmin olun.
- Cütlüyə doğuşdan sonrakı altı ay müddətində cinsi aktivlikdən çəkinməyi, cinsi əlaqə zamanı narahatlıqlarını dinləməyi, kontraseptiv vasitələrdən istifadə etməyi və s. tövsiyə edin. Altı həftə bitdikdən sonra isə, qadının cinsi aktivliyə nə zaman və necə hazır olacağı ilə bağlı qərarına hörmət etməyin vacibliyini vurğulayın.
- Ana cərrahiyyə əməliyyatı keçiribsə (məs.qeysəriyyə kəsiyi), partnyorunu ananın sağaldığı müddətdə ehtiyac duyduğu hər hansı xüsusi qulluq barədə məlumatlandırın.
- Ana südü ilə qidalandırma ilə bağlı problemlərlə (məsələn, sinəyə düzgün tutmaq, südün az olması, yaxud döşlə əmizdirmə zamanı ağrı) bağlı yardım üçün əlaqə saxlanıla biləcək laktasiya məsləhətçiləri və ya mütəxəssisləri barədə məlumat verin.
- Partnyora izah edin ki, o, ana südü ilə qidalandırmaya cavabdeh olmasa da, ana və uşağa bir sıra digər mühüm yollarla köməklik göstərə bilər. Belə ki, o, ev işlərini görə və uşaq ana südü ilə qidalandırılmadığı vaxtlarda ona baxa bilər.
- Yenidoğulmuşun ilk tibbi müayinəsinin tarixi və yerini planlaşdırın və partnyoru iştirak etməyə həvəsləndirin.
- Partnyoru uşağın xüsusilə həyatının ilk 4 ilində sağlamlığı ilə bağlı müayinələrin vacibliyi barədə məlumat verin.
- Partnyoru atalıq məzuniyyətindən (mövcud olduğu halda) istifadə etməyə həvəsləndirin və izah edin ki, bu, onun öz övladı, partnyoru ilə münasibətinə və onun öz rifahına önəmli və uzunmüddətli təsir göstərəcəkdir.

## TÖVSİYƏ VƏRƏQİ: DOĞUŞ ZAMANI KİŞİLƏRİN ROLU[8]

Kişi müştəriləri doğumdakı roluna hazırlamaq və bu barədə düşünmələrinə kömək etmək üçün onlara aşağıdakı əlçatan və praktiki tövsiyə vərəqi verilə bilər.

### ERKƏN DOĞUŞ ZAMANI

**Plana malik olun.** Hazır olmaq hər zaman faydalıdır, buna görə də gözlənilən doğum tarixindən bir neçə həftə əvvəl xəstəxanaya ən yaxşı marşrutu müəyyənləşdirin. Öz avtomobiliniz və ya taksi ilə aparacağınızdan asılı olmayaraq, bu marşrutu sınaqdan keçirin. Bu sizə, həmin gün (və ya gecə) sürprizlə qarşılaşmamaq imkanı verəcək. Çünki hətta GPS naviqasiya sistemindən istifadə etsəniz belə, yolu bilmirsinizsə, yenə də yanlış döngələrdən dönə bilərsiniz. Bu, həmçinin, avtomobilə körpə oturacağının quraşdırılması üçün münasib vaxtdır. Bu proses çətin ola bilər. Körpənizi evə apararkən buna ehtiyacınız olacaq.

---

8 Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılıb: Linda Rodgers (2020) How Partners Can Offer Support and Encouragement During Labor (2020). What to Expect When You're Expecting. Burada:www.whattoexpect.com/pregnancy/dads-guide/support-partner-during-labor-delivery/

**Çantalarınızı yığın.** Bu da qabaqcadan yerinə yetirilməli olan bir tapşırıqdır. Çünki sancılar başlayanda bunu hazır etdiyiniz üçün hər ikiniz məmnun olacaqsınız. Siz özünüz də gecəni xəstəxanada keçirə bilərsiniz. Buna görə də, hər iki çantada dəyişmək üçün alt paltarı, gigiyenik vasitələr, telefon adaptorunuz, əlavə bir cüt corabınız, isti köynək (xəstəxanalar soyuq ola bilər) və ya kapüşon olmasını təmin edin. Siz həmçinin onun doğuş planının, sığorta məlumatının və xəstəxana sənədlərinin bir nüsxəsini çantaların yanında bir yerdə saxlaya bilərsiniz ki, getmək vaxtı gələndə hər şeyi tez götürə biləsiniz.

**Sancılarınızdan agah olun...** Brekston Hiks sancıları davamlı şəkildə baş vermir - onlar gəlib-gedir, 30 saniyədən iki dəqiqəyədək davam edə bilir və partnyorunuz mövqeyinizi dəyişəndə azala bilər. Həqiqi doğuş sancıları konkret ritmlə baş verir, güclənir və vaxt keçdikcə daha uzun və daha tez-tez baş verir. Nəyin baş verdiyini aydınlaşdırmaqda partnyorunuza kömək edə bilərsiniz ki, hər ikiniz sakitləşəsəniz və vəziyyəti daha yaxşı ələ alasınız (lakin ağrı çox olarsa və ya əmin deyilsinizsə, mütləq ona qulluq edən tibb bacısı və ya mama ilə əlaqə saxlamalısınız).

**...və onların vaxtını necə müəyyən edəcəyinizi bilin.** Siz ona qulluq edən həkim və ya mamaya zəng vurduqda, o, sancıların hansı tezlikdə baş verdiyini soruşacaq. Beləliklə, partnyorunuza göstərə biləcəyiniz dəstəyin bir növü erkən doğuş zamanı sancıların vaxt aralığını müəyyən etməkdə kömək etməkdir. Bunun üçün bir sancının başlanğıcından digər sancının başlanğıcınadək olan vaxta intervallarını müəyyən edin. Sancılar daha tez-tez baş verməyə, daha uzun çəkməyə və daha ağrılı olmağa başlayarsa, onun həkiminə zəng etmək faydalı olar. Ona xidmət edən həkimin nömrəsini telefonunuzda "Sürətli yığım" siyahısına daxil etməyiniz də faydalıdır (hələ etməmisinizsə).

**Fikrini yayındırın.** Bu, həqiqətən də çox uzun bir gün ola bilər. Yadda saxlayın ki, doğuş sancılarının 10 saatdan yuxarı davam etməsi ilk dəfə ana olan qadınlar üçün nadir xarakter daşımır (baxmayaraq ki, tədqiqatlar 5-7 saat müddətin də səciyyəvi olduğunu göstərir). Məhz burada siz daxil olursunuz: bəzi oyunlar gətirirsiniz, sevdiyiniz teleserialın bir seriyasını qoşursunuz və ya əgər o da istəyirsə, koridorda gəzişirsiniz.

**Sakitliyinizi qoruyun.** Sizin ən vacib vəzifəniz partnyorunuzın özünü emosional baxımdan gərgin hiss etməməsidir, buna görə də öz sakitliyinizi qoruyun. Birlikdə bəzi əzələ yumşaldıcı proqressiv idman hərəkətləri, yaxud qısa meditasiya edin. Əgər o sizə icazə verərsə, başını və ya kürəyini yüngülcə masaj edin və çox sərt sancılar zamanı əlindən tutun.

**Doğum prosesinin mərhələləri barədə oxuyun.** Doğum sancılarının erkən vaxtlarında sancılar hələ yüngül ola bilər, aralarındakı məsafə 20 dəqiqə ola və stabil olmaya bilər. Bu, saatlarla və ya hətta günlərlə davam edə bilər. Lakin bu sancılar intensivləşməyə başlayanda və 40-60 saniyəyə yaxın davam etdikdə, onun doğumun aktiv fazasına daxil olduğu ehtimal edilir. İndi ona xidmət göstərən həkimə zəng vura bilərsiniz və o yəqin ki, xəstəxanaya getməyinizi deyəcək.

XƏSTƏXANADA

**Sənədləri doldurun.** Əvvəlcədən xəstəxanada qeydiyyatdan keçməmisinizsə, siz bunu indi edəcək, partnyorunuz isə doğum evinə daxil olacaq. Zərurət olduğu təqdirdə sığorta məlumatlarınızın və digər sənədlərin əvvəlcədən çantanızda hazır olması faydalıdır.

**Gözlənilməz hadisələrə hazır olun.** Otağa gəldikdən sonra tibb bacısına epidural anesteziya istədiyinizi, yoxsa ağrıkəsici dərman olmadan doğum etmək istədiyinizi bildirin. Lakin uyğunlaşma zərurətini nəzərə alaraq, digər variantlara açıq olun. Heç kim - hətta ən təcrübəli mama belə, partnyorunuzun doğuşunun necə keçəcəyini dəqiq deyə bilməz. Məsələn, siz ikiniz daha əvvəl doğuşun ağrıkəsici olmadan aparılması barədə danışmış ola bilərsiniz, lakin doğuş prosesi irəlilədikcə vəziyyət dəyişə bilər.

**Onun vəkili olun ...** Doğuş zamanı partnyorunuz adətən öz adından danışa bilmir, ona görə də onun adından təsdiq etməyə hazır olun. Əgər siz və ya partnyorunuz baş verənlərdən narahat olsanız həkimlə danışmaqda israr edin. Niyə müdaxilə edildiyini soruşarkən, qətiyyətli olun, lakin hörmətlə yanaşın.

**... və onu dəstəkləyin.** Həyat yoldaşınız televizoru açmaq və beş dəqiqə sonra söndürmək istəyirsə, onunla zarafat edin. Sizdən gedib buz parçası gətirməyinizi istəsə, bunu edin (həkim icazə verərsə). Səylərinə görə onu tərifləyin (onun sinirlərinə toxunmursa) və ya onu anladığınızı göstərin. Masaj istəyirsə, bunu edin. Ayaqları üşüyürsə, corabları tapın və geydirin (və ya tibb bacısından bir cüt corab alın). Ona istidirsə, üzünü və bədənini nəmli bir parça ilə sərinlədin.
Heç nəyi şəxsi qəbul edib inciməyin. Həkim və doğum üzrə tibb bacısı təşəbbüsü ələ aldıqdan sonra onların ayağına dolaşdığınızı hiss edəcəksiniz. Partnyorunuz sizə qışqırarsa, özünüzü lazımsız da hiss edə biləcəksiniz. Lakin sizin çox vacib rolunuz var və bu, bəzən onu tək buraxmağınız da ola bilər. Doğuş keçirən birinə nə demək olar? Bəzən heç bir şey deməmək lazımdır. Əvəzində, sancılar müddətində onunla birgə nəfəs alın, alnını silin və əlinizi sıxmasına icazə verin.

**... və onu dəstəkləyin.** Həyat yoldaşınız televizoru açmaq və beş dəqiqə sonra söndürmək istəyirsə, onunla zarafat edin. Sizdən gedib buz parçası gətirməyinizi istəsə, bunu edin (həkim icazə verərsə). Səylərinə görə onu tərifləyin (onun sinirlərinə toxunmursa) və ya onu anladığınızı göstərin. Masaj istəyirsə, bunu edin. Ayaqları üşüyürsə, corabları tapın və geydirin (və ya tibb bacısından bir cüt corab alın). Ona istidirsə, üzünü və bədənini nəmli bir parça ilə sərinlədin.

**Heç nəyi şəxsi qəbul edib inciməyin.** Həkim və doğum üzrə tibb bacısı təşəbbüsü ələ aldıqdan sonra onların ayağına dolaşdığınızı hiss edəcəksiniz. Partnyorunuz sizə qışqırarsa, özünüzü lazımsız da hiss edə biləcəksiniz. Lakin sizin çox vacib rolunuz var və bu, bəzən onu tək buraxmağınız da ola bilər. Doğuş keçirən birinə nə demək olar? Bəzən heç bir şey deməmək lazımdır. Əvəzində, sancılar müddətində onunla birgə nəfəs alın, alnını silin və əlinizi sıxmasına icazə verin.

**O, güc verməyə başladıqda isə əlinizdən gələni edin.** O, güc verdikcə, onadəstək verin və üzünü silməyə davam edin. Kiçik jestlər partnyorunuzı davam etməyə ruhlandıracaq. Onu gedişat barədə məlumatlandıra da bilərsiniz ki, o, körpənin başının gəldiyini bilsin (əgər o, özünü aynada görə bilmirsə).

**Körpə doğulanda artıq praktiki nəsə etməkdən qorxmayın.** Əgər partnyorunuzla daha əvvəl razılaşmısınızsa, göbək ciyəsini kəsə bilərsiniz. Həkim və ya tibb bacısı sizi istiqamətləndirəcək (sizə kömək üçün orda olacaq), buna görə də səhv bir şey etməkdən narahat olmayın.

**Ona təşəkkür edin.** Hər şey başa çatdıqda və yeni körpənizi qucağınızda tutduqda, həyat yoldaşınızın indicə nəyə nail olduğunu dərk edin. Doğuş sancıları, doğuş və hətta doqquz aylıq hamiləlik müddətini uğurla başa vurması böyük təqdir tələb edir. Sevgi dolu bir təşəkkür məktubu yazmaq və ya kiçik bir hədiyyə vermək üçün vaxt ayırmaq onun üçün mənalı olacaq.

## ÜNSİYYƏT STRATEGİYALARI

Aşağıdakı bölmədə partnyorları ilə birgə və ya onlar olmadan məsləhətvermə və müayinə üçün gəlişlərdə iştirak edən kişiləri daha yaxşı cəlb etməkdə tibb mütəxəssislərinə kömək edəcək nümunəvi ünsiyyət strategiyaları təqdim edilir.

## PARTNYORU HAMİLƏ OLAN GƏLƏCƏK ATALARI CƏLB ETMƏK ÜÇÜN 5 SUAL[9]

Aşağıdakı suallar tibb işçiləri tərəfindən kişilərlə və ya cütlüklərlə məsləhətvermə sessiyaları kontekstində istifadə edilə biləcək istiqamətləndirici suallardır.

1. Bu hamiləlikdə ən çox nədən zövq alırsınız?
2. Bu hamiləlik dövründə sizin üçün ən çətin olan nədir?
3. Sizcə körpəniz necə olacaq?
4. Sizcə həyatınız necə dəyişir və dəyişəcək?
5. Sizcə, ola biləcəyiniz ən yaxşı ata olmağınıza nə kömək edə bilər?

Daha dərindən nəzər saldıqda, aşağıdakı suallar kişilərin ata roluna töhfə verə biləcək güclü cəhətlərini müəyyənləşdirməyə və stimullaşdırmağa kömək edə bilər:
1. Gələcək bir ata kimi nəyi yaxşı etdiyinizi düşünürsünüz? (birbaşa yanaşma)
2. Bu sizin üçün niyə önəmlidir? (dəyərlər)
3. Atalıqla bağlı nəyi səbirsizliklə gözləyirsiniz? Niyə? (məmnuniyyət əsaslı)
4. Körpənin anası nəyi yaxşı etdiyinizi deyir? Niyə? (münasibətlə bağlı)
5. Sizsiz körpənizin və anasının həyatı necə olar? Niyə? (çıxmaqla)

## DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ MÜAYİNƏ ÜÇÜN ZİYARƏTLƏR ZAMANI KİŞİLƏRİN CƏLB OLUNMASI İLƏ BAĞLI PROBLEMLƏRİN HƏLLİ ÜÇÜN NÜMUNƏVİ STRATEGİYALAR VƏ CAVAB TƏDBİRLƏRİ[10]

Aşağıdakı nümunəvi strategiyalar tibb işçilərinin doğum öncəsi müayinələr və məsləhətvermə sessiyaları zamanı kişiləri cəlb etdikləri zaman qarşılaşdıqları ümumi gender əsaslı problemləri əhatə edir.

**PROBLEM 1: Doğum öncəsi müayinə və ya məsləhətvermə sessiyası zamanı əsasən və ya yalnız kişi danışır. O, yoldaşının sözünü kəsir, həmişə birinci danışır və ya onun adından danışır.**

9Aşağıdakı mənbədən götürülərək bir qədər uyğunlaşdırılıb: Matthew Roberts (2016) There from the start: men and pregnancy. AFP Vol 45, No 8, August 2016. The Royal Australian College of General Practitioners.

10Aşağıdakı mənbədən bir qədər uyğunlaşdırılıb: Engender Health (2003) and Communicating with Men (Kişilərlə konsultasiya və ünsiyyət). USAID, New York, NY.

Səbəb

- Cütlük, kişilər və qadınlar üçün mədəni baxımdan məqbul hesab edilən ünsiyyət və qərar vermə ənənələrini nümayiş etdirə bilər.
- Kişi şüurlu şəkildə bu münasibətdəki üstün səlahiyyətindən istifadə edə bilər və qadın münaqişədən çəkinmək üçün səlahiyyətini güzəştə gedə bilər.
- Kişi səriştəli olduğunu və məsələ və ya vəziyyət haqqında hər şeyi bildiyini nümayiş etdirməyə çalışa bilər.
- Və ya kişi narahatlıq və qorxu hiss edə bilər və danışaraq bu hissləri azaltmağa çalışa bilər.

Kişi partnyor nə deyə bilər

- "Biz ona görə buradayıq ki..."
- "O, problemi başa düşmür."

Strategiya

- Mühitin mədəni normalarından başlayın: kişinin marağını və rolunu təqdir edin.
- Sessiyanın əvvəlindən izah edin ki, siz hər ikisindən məlumat almalısınız - yəni, əslində bu, bir tələbdir.
- Qadına "Bəli" və ya "Xeyr" ilə cavablandırıla bilməyən açıq suallar verməklə, onu danışmağa təşviq edin.
- Mümkünsə, qadının kişinin hərəkətlərini təqdir edərək verdiyi hər hansı bir məlumatdan istifadə edin. Kişi, partnyorunun onun haqqında danışdığı zaman tibb işçisinin qadınla razılaşacağından qorxa bilər; lakin, partnyoru onun barəsində pozitiv qeydlər etdikdə, onun danışmasına dəstək olma ehtimalı daha yüksək olacaqdır.

Mümkün cavab

- "Görürəm ki, bu məlumatla (və ya vəziyyətlə) çox maraqlanırsınız və sizin partnyorunuzın da nə düşündüyünü eşitmək istərdim."
- "Bu görüş zamanı hər ikinizi dinləmək istəyirəm."

Gender məsələləri

- Kişi tibb işçiləri ata-ana olmağa hazırlaşan cütlüklərlə konsultasiya etdikdə, onların "kişi-kişiyə" qarşılıqlı təmasın potensialından xəbərdar olmaları vacibdir. Bu xüsusən münasibətlərdə kişilərin qadınlardan daha çox qərar verdiyi mədəniyyətlərə şamil edilir.
- Kişi tibb işçiləri qadın müştərini söhbətə cəlb etməyə çalışarkən, yanaşmanın açıq şəkildə peşəkar olması üçün diqqətli olmalıdırlar.

**PROBLEM 2: Kişi sessiya zamanı məlumat bölüşməyə tərəddüd edir və ya sessiyanın onun üçün maraqlı olmadığı görünür və ancaq partnyorunun danışmasına şərait yaradır.**

Səbəb

- Kişi sessiya zamanı aldığı məlumatları anlamırmış kimi görünməkdən çəkinə bilər.
- Kişi, partnyorunun hissləri, düşüncələri və ya təcrübələrindən xəbərsiz ola bilər.

- Kişi bu ziyarətin "qadın üçün" olduğunu düşünə bilər və burada oynayacağı bir rolu olmadığını düşünə bilər.
- Tibb işçisi kişi üçün cavablandırılması çətin olan suallar verə bilər, məsələn: "Uşaq doğulduqdan sonra uşaq baxımı və ev işləri öhdəliklərini necə bölüşdürməyi planlaşdırırsınız?"

Kişi partnyor nə deyə bilər
- "Bilmirəm"
- "Hər şey yaxşıdır."
- "Hər hansı problemim yoxdur."
- "Bu, həqiqətən onun işidir."

Strategiya
- Kişini özü haqqında deyil, vəziyyət barədə fikirlərini bölüşməyə təşviq edin. Vəziyyətin xarakterinə əsaslanan variantları ona təklif edin.
- Kişinin fikirlərini bölüşməməsini maraq göstərməməsi kimi şərh etməyin. Partnyorunun onun yerinə cavab verməsinə icazə verməyin; onu fəal şəkildə cəlb etməyə çalışın.
- Kişinin iştirakının onun partnyorunun və körpənin sağlamlığı üçün çox vacib olduğunu vurğulayın.
- Sualları daha konkret şəkildə yenidən quraraq verin. Məsələn, "Doğumda necə iştirak etmək istərdiniz?" əvəzinə "Doğum zamanı göbək ciyəsini kəsmək istərdinizmi?"

Mümkün cavab
- "Yoldaşınıza qayğı göstərməyinizi və bu gün onunla birlikdə gəlməklə bunu nümayiş etdirməyinizi təqdir edirəm. Sizin dəstəyiniz onun və körpənin sağlamlığı üçün çox vacibdir. "
- "Bir çox kişi bütün bunların onunla necə əlaqəli olduğunu düşünür. ...-da rolunuzla bağlı hansı suallarınız var?"
- "Bəzi digər kişilər partnyorları ilə gələndə bu sualları veriblər. [Bəzi tez-tez verilən sualları sadalayın.] Bu suallardan hansı haqqında daha çox məlumat istərdiniz?

Gender məsələləri
- Tibb işçisi qadın olduqda, kişi bunun "qadın söhbəti olduğunu düşünə bilər və ya iki qadının qarşısında "pis" görünməkdən çəkinmək istəyə bilər. Bundan əlavə, tibb işçisinin qadınla əvvəlcədən peşəkar münasibəti ola bilər; belə olarsa, tibb işçisi bu məsələni tez bir zamanda həll etməli və diqqəti kişinin iştirakına yönəltməli, kişinin bunun onunla bağlı olduğunu, tibb işçisinin ona yaxşı müraciət etdiyini və xoş qarşılandığını hiss etməsini təmin etməlidir.

### PROBLEM 3: Bir partnyorsessiya zamanı digər partnyoru üçün sürpriz xarakterli məlumatları açıqlayır.

Səbəb
- Partnyorlardan biri üçüncü bir şəxsin iştirakının yaratdığı fürsətdən və ya təhlükəsizlikdən istifadə edərək hansısa məlumatı açıqlayır (məsələn, uşaq sahibi olmaq istəmədiyini və ya daha bir uşaq istəmədiyini).
- Cütlük əvvəllər bu məlumat haqqında heç danışmamış və partnyorunun bilikləri və ya yanaşmaları haqqında fərziyyələr yürütmüş ola bilər.

Kişi partnyoru nə deyə bilər
- "Niyə bunu mənə əvvəldən deməmisən?"
- "Güman etdim ki, bu barədə səninlə danışmağımı istəmirsən."
- "Bunu məndən gizlətdiyinə inana bilmirəm."

Strategiya
- Müzakirəni, kişinin öz partnyoru ilə səhiyyə müəssisəsinə gəlməsinin səbəbinə (səbəbləri) yönəldin.
- Müzakirəni kişinin öz partnyoruna dəstək verməsi üçün müsbət bir fürsət kimi təqdim edin.
- Kişiləri cütlüklərin bir-biri haqqında hər şeyi bilməməsinin normal olduğuna əmin edin və partnyoru haqqında bəzi şeyləri öyrənməyin çətin olmasına baxmayaraq, indi əldə etdikləri məlumatların onun sağlamlığı üçün daha yaxşı qərarlar qəbul etməsinə və gələcəkdə partnyorunun  və körpəsinin sağlamlığını daha yaxşı dəstəkləməsinə kömək edə biləcəyinə inandırın.

Mümkün cavab
- “Bir çox cütlük heç vaxt ... barəsində (məs.hamiləlik dövründə cinsi əlaqə, doğuş, doğuşdan sonrakı depressiya) danışmır, bu səbəbdən yanlış təsəvvürlərin olması nadir hal deyil. Artıq bir-biriniz haqqında bunu öyrəndiyiniz üçün öz sağlamlığınıza, partnyorunuzun və körpənizin sağlamlığına daha yaxşı baxa bilərsiniz.”
- “Bilirəm ki, özünüz, yoldaşınız və körpəniz üçün ən yaxşısını etmək istəyirsiniz. Bu məlumata sahib olmaq sizə bunu etməkdə kömək edəcəkdir. ”
- "Bilirəm ki, bu barədə daha sonra daha çox danışmaq istəyəcəksiniz, amma indi bu təcili məsələni həll edə bilərik (məs. perinatal qayğı, müalicə qərarı)."

## DOĞUŞAQƏDƏRKİ DÖVRDƏ KİŞİLƏRLƏ ÜNSİYYƏT ZAMANI İSTİFADƏ EDİLMƏLİ NÜMUNƏVİ İFADƏLƏR[11]

Aşağıdakı cədvəldə, doğum öncəsi dövrdə müayinə üçün gəlişlər zamanı tibb işçiləri ilə ünsiyyətdə meydana çıxa biləcək stereotiplərə və maneələrə həssas olan kişilərlə ünsiyyətdə istifadə etmək üçün nümunəvi ifadələr təqdim edilir:

| STEREOTİP VƏ YA ƏNGƏL | NÜMUNƏVİ İFADƏLƏR |
|---|---|
| Kişilər qərarların verilməsinə məsul şəxs kimi qəbul edilmək və öz problemlərini özləri həll etmək niyyətində olabilər. | • "Bu gün partnyorunuzla birgə bura gəlməklə yaxşı bir qərar verdiniz."<br>• "Doğum prosesi ilə bağlı narahatlıqlarınızı partnyorunuzla bölüşməklə yaxşı bir qərar verdiniz."<br>• Bu problem və ya məsələ barədə partnyorunuzla necə danışmağı planlaşdırırsınız? |
| Kişilər doğum öncəsi dövrdə və doğuş zamanı öz rolları və ya vəzifələri barədə sual verməkdən çəkinirlər. | • Ötən gün bir kişi içəri girdi və arvadının doğuş zamanı ağrı keçirdiyi zaman ona kömək etmək üçün nə edə biləcəyini soruşdu. Ona bunları dedim...”<br>• “Hamiləlik və doğuşun mərhələlərini başa düşsək də, yenə də narahatlıq və qorxu hiss edə bilərik. Aydınlaşdırmaq istədiyiniz başqa bir şey varmı?”<br>• "Doğuş zamanı və ondan sonrakı depressiyanın risklərini ümumən başa düşdüyünüz görünür, amma barəsində daha çox şey öyrənmək istədiyiniz məqamlar varmı?"<br>• "Madam ki, bu gün buradasınız, soruşmaq və ya mənimlə danışmaq istədiyiniz bir şey varmı?" |
| Kişilər "normal" olduqlarını və digər kişilər qədər yaxşı və ya onlardan daha yaxşı olduqlarını bilmək istəyə bilərlər. | • "Bir çox kişi eyni şeydən narahatdır."<br>• "Bir çox kişi bu sualı əvvəllər verib."<br>• "Bu məsələ bir çox kişini maraqlandırır." |
| Kişilər doğuşdan əvvəl və doğuş zamanı öz rolları və ya vəzifələri barədə sual vermək üçün təkana ehtiyac duyur. | • "Bu, həqiqətən yaxşı bir sualdır."<br>• "Yaxşı ki, bu sualı verdiniz..."<br>• "Buraya daha çox məlumat almaq üçün gəlməyiniz çox yaxşıdır ..." |

11 Aşağıdakı mənbədən bir qədər uyğunlaşdırılıb: Engender Health (2003) and Communicating with Men (Kişilərlə konsultasiya və ünsiyyət). USAID, New York, NY.

## GENDER ƏSASLI ZORAKILIQ VƏ GENDER ƏSASLI DİGƏR RİSKLƏR

Tədqiqatlar[12] göstərir ki, qadınlara qarşı intim partnyor zorakılığının (IPV) hamiləlik dövründə baş vermə ehtimalı yüksəkdir və qadınların reproduktiv sağlamlığı ilə yanaşı fiziki və psixi sağlamlığı, dölün böyüməsi və inkişafına da mənfi təsir göstərir. Aşağıdakı alətlər tibb işçilərinin kişilər tərəfindən hamilə partnyorlarına qarşı törədilən mümkün intim partnyor zorakılığını aşkar etmək üçün doğumöncəsi müayinə və məsləhətləşmələrdən faydalanmasına kömək etmək məqsədi daşıyır. Bundan əlavə, tibb işçiləri BMTƏF-nın "Gender əsaslı zorakılığa çoxsahəli cavabın bir hissəsi kimi səhiyyə xidmətlərinin göstərilməsi üzrə Standart Əməliyyat Prosedurları"na (2015-ci il) nəzər sala bilərlər.

Tibb müəssisəsi intim partnyor zorakılığına görə rutin skrininqlər təyin etməyi nəzərdə tutursa, bu skrininqlər ÜST-ün etik qaydalarına uyğun olmalı və aşağıdakı minimum tələblərə cavab verməlidir:
- Qüvvədə olan protokol və ya standart əməliyyat proseduru olmalıdır
- Heyət sualların necə verilməsi, minimum cavablar və s. barədə hazırlıq keçməlidir
- Heyət üzvləri birbaşa cavab tədbiri görə bilmək üçün hazırlıq keçməlidir
- Skrininq xəlvəti mühitdə aparılmalıdır
- Konfidensiallıq təmin edilməlidir
- Göndərişlər üçün sistem mövcud olmalıdır

Tibb işçilərinin hamilə qadınlarla qarşılıqlı təmasa təsir göstərə biləcək gender və digər norma və stereotiplərin təsiri və gizli daxili qərəz mövzusunda hazırlıq keçməsi də vacibdir.

### AŞKARLAMA ALƏTİ: HAMİLƏLİK DÖVRÜNDƏ İNTİM PARTNYOR ZORAKILIĞINI AŞKAR ETMƏK VƏ MÜVAFİQ TƏDBİR GÖRMƏK ÜÇÜN ATILMALI ADDIMLAR [13]

Aşağıdakı alətlər tibb işçilərinə intim partnyor zorakılığına məruz qalan pasiyentlərin aşkar edilməsi və müalicə edilməsi üçün atılmalı əsas addımları yadda saxlamaqda kömək etmək üçün hazırlanmışdır.

Yetkinlik yaşına çatmış pasiyentləri rutin olaraq, skrininq etmək (QÜVVƏDƏ OLAN ETİK PROTOKOLLAR VARSA)
Pasiyentlərin müayinəsinin rutin hissəsi kimi, intim partnyor zorakılığı barədə sual verməyi yadda saxlayın

[12] Ümumdünya Səhiyyə Təşkilatı (2011) Intimate partner violence during pregnancy: information sheet. (Hamiləlik zamanı intim partnyor zorakılığı: məlumat vərəqəsi) Burada: https://apps.who.int/iris/bitstream/handle/10665/70764/WHO_RHR_11.35_eng.pdf?sequence=1

[13] From Basile KC, Hertz MF, Back SE. (2007) Intimate Partner Violence and Sexual Violence Victimization Assessment Instruments for Use in Healthcare Settings: Version 1. (Intim partnyor zorakılığı və cinsi zorakılığa məruz qalmanın qiymətləndirilməsində tibb müəssisələrində istifadə üçün alətlər) Atlanta, GA: Centers for Disease Control and Prevention, National Center for Injury Prevention and Control.

Birbaşa suallar vermək

Zorakılıq barədə aşağıdakı kimi birbaşa suallar verin:
- Yoldaşınızdan qorxursunuzmu?
- Yoldaşınız və ya evdəki başqa bir şəxs heç sizi sizə zərər verməklə və ya hansısa formada fiziki zərər vurmaqla təhdid edibmi? Əgər olubsa, bu, nə vaxt olub?
- Yoldaşınız və ya evdəki başqa bir şəxs sizə qarşı zorbalıq edir və ya təhqir edirmi?
- Yoldaşınız sizi idarə etməyə çalışırmı, məsələn pulunuzun olmasına və ya evdən çıxmağa icazə verməməklə?
- Yoldaşınız sizi cinsi əlaqəyə məcbur edibmi və ya istəmədiyiniz seksual təmasa məcbur edibmi?
- Yoldaşınız sizi öldürməklə hədələyibmi?

Aşkar etdiyiniz məsələləri qeyd etmək

Şübhəli intim partnyor zorakılığı ilə bağlı aşkar etdiyiniz nəticələri pasiyentin vərəqəsində qeyd edin.

Pasiyentin təhlükəsizliyini qiymətləndirmək

Pasiyentinizin təhlükəsizliyi barədə soruşun. Evə qayıtmaq təhlükəsizdirmi? Evdə hər hansı silahların saxlanıb-saxlanılmadığını, uşaqların təhlükədə olub-olmadığını, zorakılığın şiddətlənib-şiddətlənmədiyini soruşun.

Variantları və göndərişləri nəzərdən keçirmək

Variantları pasiyentinizlə nəzərdən keçirin. İcmanızda göndəriş verilə biləcək resursların növləri barədə məlumatlı olun (məsələn, sığınacaqlar, dəstək qrupları, hüquqi təşviqatçılar). Müəssisələr, xidmətlər və əlaqə məlumatlarını əks etdirən çap formasında resurs vərəqəsinə malik olun.

## HAMİLƏLİK MÜDDƏTİNDƏ ZORAKILIĞA MƏRUZ QALMIŞ OLA BİLƏCƏK QADINLARIN MÜƏYYƏN EDİLMƏSİ [14]

ÜST tibbi qulluq üçün müraciət edən qadınların hamısının universal olaraq zorakılığa görə skrininq olunmasını tövsiyə etmir. ÜST tibb işçilərini zorakılıqla əlaqəli ola biləcəyini düşündükləri xəsarətlərə malik olan və ya belə vəziyyətdə olan qadınlarla bu mövzunu müzakirə etməyi tövsiyə edir. Tibb işçilərinin qadının sağlamlıq problemlərinin zorakılıqdan qaynaqlana və ya zorakılıq səbəbindən ağırlaşa biləcəyini bilmələri vacibdir. O, hazırda və ya keçmişdə evdə davamlı zorakılığa məruz qalmış ola bilər. Yaxud yaxınlarda və ya keçmişdə cinsi zorakılığa məruz qalmış ola bilər. Münasibətlərində zorakılığa məruz qalmış qadınlar tez-tez xəsarətlər də daxil olmaqla, zorakılıqla əlaqəli emosional və ya fiziki vəziyyətlə bağlı olaraq tibb xidmətinə müraciət edirlər. Bununla belə, əksər hallarda utanc və ya qınaq qorxusu və ya həyat yoldaşından qorxusu səbəbilə sizə zorakılıq haqqında danışmırlar.

14 From Deshpande, N. A., & Lewis-O'Connor, A. (2013). Screening for intimate partner violence during pregnancy (Hamiləlik müddətində intim partnyor zorakılığına görə skrininq). Reviews in obstetrics & gynecology, 6(3-4), 141–148.

Aşağıdakılardan biri olduqdaqadının zorakılığa məruz qalmış olduğundan şübhələnə bilərsiniz:

- Stress, narahatlıq və ya depressiya kimi cari emosional sağlamlıq problemləri
- Alkoqol və ya narkotikdən sui-istifadə kimi zərərli davranışlar
- Özünə zərər vurmaqla bağlı düşüncələr, planlar və ya və ya intihara cəhdlər
- Təkrarlanan və ya səbəbi tam aydın olmayan xəsarətlər
- Cinsi yolla ötürülən infeksiyalar
- Arzuedilməz hamiləliklər
- Açıqlana bilməyən xroniki ağrı və ya vəziyyət (çanaqda ağrı və ya cinsi problemlər, mədə-bağırsaq problemləri, böyrək və ya sidik kisəsi infeksiyaları, baş ağrıları)
- Konkret bir diaqnoz olmadan təkrarlanan tibbi məsləhətləşmələr.

Qadının partnyorunun məsləhətləşmələr zamanı müdaxilə etməsi, qadının özünün və ya uşaqlarının təyin olunmuş tibbi müayinələrini tez-tez buraxması və ya uşaqlarında emosional və davranış problemlərinin olması halında zorakılıq problemindən şübhələnə bilərsiniz.

Aşağıdakı yaddaş siyahısı tibb işçiləri tərəfindən hamiləlik dövründə intim partnyor zorakılığının aşkar, habelə daha incə əlamətlərini müəyyən etməyə kömək üçün istifadə edilməlidir.

**ADDIM 1: İntim partnyor zorakılığı ilə bağlı xəbərdaredici əlamətləri aşkar etmək üçün tibbi tarixçəni nəzərdən keçirmək**

- Xəsarətlərlə bağlı daha əvvəl tibbi yardım üçün edilmiş ziyarətlər
- Keçmişdə baş vermiş zorakılıq və ya hücum
- Təkrar gəlişlər
- Çanaqda xroniki ağrı, baş ağrıları, vajinit, qıcıqlanan bağırsaq sindromu
- Keçmişdə baş vermiş depressiya, psixoaktiv maddələrdən istifadə, intihar cəhdləri, təşviş

**ADDIM 2: Hamiləliklə əlaqəli faktorları aşkar etmək üçün tibbi tarixçəni nəzərdən keçirmək**

- Planlaşdırılmamış hamiləlik
- Hamilə qalmaqla bağlı məyusluq
- Gənc yaşda analıq
- Ailə vəziyyəti - subay olması
- Daha yüksək hamiləlik pariteti
- Doğum öncəsi tibbi xidmət üçün gec müraciət etmə/müayinələrə gəlməmə

**ADDIM 3: Qadının davranışını müşahidə etmək**

- Heç bir emosiyanın müşahidə edilməməsi
- Qorxu, depressiya, təşviş
- Post-travmatik stress pozğunluğunun simptomları
- Özgələşmə, emosional keyləşmə, səksənərək cavablandırma
- Həddən artıq itaətkarlıq
- İfrat inamsızlıq
- Marağın itməsi
- Özünəhörmət hissinin aşağı olması

**ADDIM 4: Qadının partnyorunun davranışını müşahidə etmək**

- İfrat ehtiyatlılıq
- Pasiyentin yerinə sualları cavablandırmaq
- Aqressiv və ya tələbkar olmaq
- Pasiyenti tək qoymamaq
- Qadının suallara cavablarına nəzarət etmək

**ADDIM 5: Birbaşa soruşmaq**

- Kişi partnyorun, ailə üzlərinin və ya dostlarının olmadığı qapalı şəraitdə suallar vermək
- Məxfilik məsələlərini izah etmək;
- Dövlətinizdə məlumat vermə ilə bağlı icbari qanunlar barədə məlumatlı olmaq və qadını onlar barədə məlumatlandırmaq
- Üzbəüz söhbət yazılı sorğu anketlərindən daha effektlidir
- Qayğıkeş və empatiya xarakterli suallar verin
- Pasiyentinizin cavablarını dinləməyə hazır olun

## KİŞİLƏRİN DOĞUMÖNCƏSİ QULLUQDA İŞTİRAKI İLƏ BAĞLI NƏZƏRƏ ALINMALI RİSKLƏRİN SİYAHISI [15]

Aşağıdakı siyahıda kişiləri doğumöncəsi qulluğa cəlb etmək istəyən səhiyyə müəssisələri və tibb işçilərinin tez-tez qarşılaşdıqları gözlənilməz risklər təqdim olunur. Kişilərin iştirakı heç vaxt qadınların tibb xidmətlərindən istifadəsini dayandıran və ya qarşısını alan, yaxud qadınların öz bədənləri ilə bağlı qərarları qəbul etməsini məhdudlaşdıran yollarla təbliğ edilməməlidir. Kişilərin iştirakını təşviq edən və dəstəkləyən siyasət dəyişiklikləri bu iştirakı könüllü etməli və qadınlara partnyorlarının məhz onlar istəyərsə və onlar istədikləri vaxtda iştirakına imkanı verməlidir. Səhiyyə müəssisələrinin idarəçilərinin və tibb işçilərinin bu risklərdən xəbərdar olmasını təmin edin və təsirləri azaltma strategiyalarını müəyyənləşdirmək üçün birlikdə müzakirə aparın.

1. **Doğum öncəsi dövrdə müayinə üçün gəlişlərdə kişi partnyorların iştirakını təşviq və ya tələb edən siyasətlər qadınların xidmətlərdən istifadəsinə məhdudiyyət qoyulması və ya xidmətlərdən məhrum edilməsi ilə nəticələnə bilər.** Kişilərin doğumöncəsi qulluqda iştirakı bəzən perinatal müayinələrdə iştirak edən qadınlar üçün icbari olaraq müəyyən edilir və ya tibb mütəxəssisləri tərəfindən bu cür şərh edilir və tətbiq olunur. Nəticədə, kişi partnyoru olmadan (partnyorunun olmaması, partnyorunun vaxtının olmaması, yaxud partnyorunun iştirakını istəmədikləri üçün) perinatal xidmətlər üçün müraciət edən qadınlar bəzən bu xidmətdən istifadə imkanında məhrum edilirlər. Bəzi mühitlərdə bu siyasət kişilərin qadını pul müqabilində bu cür xidmət üçün müşayiət etdiyi bir bazarın yaranmasına da gətirib çıxarıb.

[15] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılmışdır: MenCare (no date) Guide for MenCare Partners on Training Health Providers. Male Engagement in Maternal, Newborn, and Child Health/Sexual and Reproductive Health (Ananın, yenidoğulmuşun, uşağın sağlamlığına/cinsi və reproduuktiv sağlamlığa qulluqda kişinin cəlb olunması).

# SURROQAT ANALIQ

## SURROQAT ANA CƏLB EDƏN ATALAR ÜÇÜN TÖVSİYƏLƏR

Surroqat ana cəlb etməyi seçən atalar tez-tez hamiləlik, doğuş və ondan sonrakı dövrlərdə surroqat ana ilə necə əlaqə qurmaqla bağlı suallar verirlər. Aşağıdakı tövsiyələr ümumi istiqamət təmin etmək üçündür; hər hansı tibbi məsələləri həll etmək üçün valideynlərin surroqat analıq üzrə mütəxəssislə və tibb işçisi ilə yaxından işləmələri tövsiyə olunur.

1. **Surroqat ananı tanıyın**
İlk vaxtlarda, tanımadığınız biri ilə belə bir intim təcrübə yaşamaq qəribə görünə bilər. Münasibətdə səbirli olun. Bu da, istənilən digər dostluqlar kimi qeyri-rəsmi şəkildə başlayacaq. Həyatlarınız - ailələriniz, işiniz, hobbiniz, sevdiyiniz filmlər və ya kitablar haqqında sadə söhbətlər edin. İlkin mərhələdə bir-birinizlə e-poçt, telefon və ya mesaj vasitəsilə əlaqə saxlamağa başlaya bilərsiniz. Surroqat ananın sizdən xəbər alması, sizin də cəlb olunduğunuzu görməsi və onun nələr yaşadığından xəbərdar olduğunuzu bilməsi vacibdir. Surroqat ananın da sizə hamiləlik, özünü necə hiss etməsi və valideynlərin iştirak edə biləcəyi doğum öncəsi müayinələr və xidmətlər barədə müntəzəm olaraq məlumat verməsi gözlənilir.

2. **Üstünlük verilən əlaqə qaydalarını qabaqcadan müzakirə edin**
Övlad sahibi olmağı illərlə gözləmiş ola bilərsiniz və bu gözləmə hissi sizin surroqat anadan tez-tez məlumatlar almaq və görüşmək istəməyinizə gətirib çıxara bilər. Bu başa düşüləndir. Lakin bu həm də hamiləlik xaricində öhdəlikləri və həyatı olan surroqat ananı çox yükləyə bilər. Sizin və surroqat ananın üstünlük verdiyi əlaqə qaydalarını qabaqcadan açıq şəkildə müzakirə etdiyinizdən əmin olun. Bir-birinizlə nə vaxt və hansı tezliklə əlaqə saxlayacaqsınız? Telefon zəngləri və ya mesaj göndərmək olarmı? Üzbəüz hansı tezlikdə görüşəcəksiniz? Bu qrafik xüsusən doğum tarixi yaxınlaşdıqca dəyişə bilər, lakin surroqat ananın seçimlərini erkən anlamaq sağlam və hörmətə əsaslanan hədlər yaratmağa kömək edəcəkdir.

3. **Minnətdarlığınızı ifadə edin**
Unutmayın ki, surroqat ana sizin uşağınızı daşımaq üçün çox böyük bir şəxsi məsuliyyət, fiziki narahatlıq və riski üzərinə götürür. Minnətdarlığınızı kiçik jestlərlə göstərin. Üzbəüz görüş üçün onun sizin yanınıza gəlməsini tələb etmək əvəzinə, onun yanına gedin. Ona yeməklər göndərin və ya nahara aparın. Losyon kimi özünəqulluq vasitələri, masaj üçün hədiyyə sertifikatı, yaxud yerli delikateslərdən ibarət hamiləlik hədiyyəsi səbəti düzəldin. Onu və ailəsini ekskursiyaya çıxarın, məsələn, bir zooparka və ya parka aparın.

4. **Doğum öncəsi müayinələr və doğuş üçün bir plan qurun**
Doğum öncəsi müayinələr və doğuşu necə idarə etmək istədiyinizi müzakirə etmək üçün surroqat ana və surroqatlıq üzrə mütəxəssislə bir araya gəlin. Məsələn:
-Həkim qəbullarına və hər hansı zəruri prosedurlara kimlər qatılacaq?
-Valideynlər həkim qəbullarında iştirak edə bilməsə, onlar necə məlumatlandırılacaq?
-Qərarlar necə veriləcək?
-Doğuş zamanı otaqda kim olacaq?
-Valideynlər göbək ciyəsini kəsmək və ya körpə ilə dəri təması kimi hər hansı bir doğum fəaliyyətində iştirak edəcəklərmi?

5. **Doğumdan sonrakı münasibətiniz barədə düşünün**
Bəzi valideynlər doğuşdan sonra surroqat ana ilə münasibətlərə son qoymağı seçsələr də, bir çox valideyn körpə dünyaya gəldikdən sonra surroqat ananı bəzi hallarda böyük ailələrinin bir hissəsi hesab edərək dost qalırlar. Bəzi surroqat analar ana südü verməyi və doğuşdan sonra valideynlərə körpəyə baxmaqda kömək etməyi təklif edirlər. Valideynlər körpə doğulduqdan sonra surroqat ana ilə əlaqəni tam kəsdikdə, bu onun üçün çox ağrılı ola bilər. Surroqat analıq üzrə mütəxəssisinizdən, surroqat ana ilə münasib qarşılıqlı təmasda olduğunuzdan əmin olmaq üçün doğuş və xəstəxanada qalmağa hazırlaşmağınıza kömək etməsini xahiş edin. Surroqat analarla doğuşdan sonrakı münasibətlər yalnız körpənin qayğısına qalmaq üçün deyil, uşağın onu dünyaya gətirən ananın kim olduğunu və doğuş vəziyyətini bilərək böyüməsi baxımından çox mənalı ola bilər.

# TİBB MÜƏSSİSƏSİNİN QİYMƏTLƏNDİRMƏLƏRİ

Aşağıdakı sürətli qiymətləndirmələr doğum öncəsi qulluq, habelə doğuş xidmətlərində çalışan tibb işçiləri üçün nəzərdə tutulur. Bu, tibb işçiləri tərəfindən fərdi şəkildə doldurula və daha sonra fərqləri və ümumi cəhətləri müəyyən etmək üçün həmin tibb müəssisəsindəki, həmçinin fərqli tibb müəssisələrindəki həmkarları ilə müzakirə edilə bilər. Bu qiymətləndirmələr tibb müəssisələrinin rəhbərləri və qərar qəbul edənlər ilə koordinasiyalı şəkildə tamamlandıqda, kişilərin doğuşdan əvvəl və doğuş zamanı daha yaxşı iştirakı üçün tədbirlərin planlaşdırılmasının əsasını təşkil edə bilər. Xüsusilə, "Müəssisəyə baxış anketi" tibb müəssisəsinin heyətinə kişilərin xoş qarşılandığını və onların doğumöncəsi tibbi qayğıda iştirakının gözlənilən olduğunu göstərmək üçün fiziki və ətraf mühitlə bağlı dəyişikliklərin edilə biləcəyi sahələri müəyyənləşdirməkdə kömək edə bilər.

## DOĞUŞÖNCƏSİ QULLUQDA ATANIN İŞTİRAKININ SÜRƏTLİ QİYMƏTLƏNDİRİLMƏSİ[16]

| MÜNASİBƏTLƏR VƏ TƏDBİRLƏR | | |
|---|---|---|
| **Suallar** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Qadın antenatal müayinə üçün gəldikdə, mən ona uşağın atası/partnyoru haqqında sual verirəm. | BƏLİ<br>XEYR | |

[16] Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılmışdır: MenCare (no date) Guide for MenCare Partners on Training Health Providers. Male Engagement in Maternal, Newborn, and Child Health/Sexual and Reproductive Health (Ananın, yenidoğulmuşun, uşağın sağlamlığına/cinsi və reproduuktiv sağlamlığa qulluqda kişinin cəlb olunması).

| | | |
|---|---|---|
| Qadın antenatal qayğı ilə bağlı səhiyyə müəssisəsinə gəldikdə mən ona qarşı intim partnyor zorakılığının olub-olmamasını müəyyən etməyə çalışıram | BƏLİ<br>XEYR | |
| Əgər mən qadının zorakı münasibətdə olmadığından əminəmsə, mən onun da razılığı olacağı təqdirdə növbəti qəbula uşağın atası/partnyorunu dəvət etmək üçün həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| Əgər ata/partnyor qəbula gəlibsə, mən bunu təqdir edirəm və ananın razılığı ilə onu növbəti qəbullarda da iştirak üçün  həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| Mən qadından partnyorunun doğuş prosesində iştirak etməsinə dair fikrini soruşuram və bu zaman atanın cəlb edilməsinin önəminə dair məlumat verirəm.. | BƏLİ<br>XEYR | |
| Mən ananın razılığı və səhiyyə müəssisəsinin qaydalarından asılı olaraq, atanı/kişi partnyoru doğuş prosesində iştirak etmək üçün həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| Mən qadına və onun partnyoruna antenatal və postnatal qayğı ilə bağlı təlimat/məlumat verirəm və bu məlumatla bağlı hər hansı bir suallarının olub-olmamasını soruşuram. | BƏLİ<br>XEYR | |
| Mən ataların/partnyorların doğuş zamanı anaya necə fiziki dəstək verə biləcəyinə dair təlimatverirəm (məsələn, masaj, tənəffüs texnikası). | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Mən həmkarlarımı da ataları/kişi partnyorları fəal şəkildə qayğı proseslərinə cəlb etmək üçün həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| Mən çalışdığım səhiyyə müəssisəsinin kişilərin antenatal qayğıya cəlb edilməsinə dair siyasəti və qaydaları, habelə bu baxımdan mövcud olan milli çərçivə/protokollarla tanışam. | BƏLİ<br>XEYR | |
| Mən mümkün olduğu qədər ataları da analarla birgə uşaq doğulduqdan sonra hər hansı bir məzuniyyət götürməyə həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| Mən mümkün olduğu qədər ataları da analarla birgə uşaq doğulduqdan sonra hər hansı bir məzuniyyət götürməyə həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |

| **KLİNİKİ SİYASƏTLƏR VƏ PROTOKOLLAR** | | |
|---|---|---|
| **İşlədiyim müəssisədə...** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| İlk antenatal müayinə zamanı atanın iştirak edib-etməməsini qeyd etmək üçün qeydiyyat formalarından istifadə olunur. | BƏLİ<br>XEYR | |
| Bütün antenatal müayinələr zamanı atanın iştirak edib-etməməsini qeyd etmək üçün qeydiyyat formalarından istifadə olunur. | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Ataların antenatal qayğıya cəlb edilməsi ilə bağlı klinik təlimat və protokollar mövcuddur. | BƏLİ<br>XEYR | |
| Təmin edildiyi təqdirdə atalar və analara valideynlik məzuniyyəti (və ya atalıq və analıq məzuniyyəti) barədə məlumat verilir. | BƏLİ<br>XEYR | |
| **KLİNİKİ MÜHİT VƏ MATERİALLAR** | | |
| **İşlədiyim müəssisədə...** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Ataları/kişi partnyorları antenatal qayğıya cəlb etmək məqsədilə (misal üçün, qəbul otağında əlavə stulun olması) müvafiq infrastruktur və məkan var. | BƏLİ<br>XEYR | |
| İşləyən valideynlər üçün uzadılmış iş saatları zamanı xidmət təmin edilir.. | BƏLİ<br>XEYR | |
| Hamiləlik və doğuşla bağlı atalar və analar və ya xüsusilə atalar üçün tərtib edilmiş məlumatlandırma materialları təmin edilir | BƏLİ<br>XEYR | |
| Atalar/ qayğı göstərən kişilərin surətinin əks olunduğu broşürlər, sənət əsərləri və ya divarda posterlər var. | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Pasiyentlər (atalar/qayğı göstərən kişilər də daxil olmaqla) uşağı dünyaya gələcək valideynlər üçün olan seminarlarla təmin edilir və ya onlar bu cür seminarlara yönləndirilir. | BƏLİ<br>XEYR | |
| Atalar/qayğı göstərən kişiləri antenatal dövr və doğuş zamanı cəlb etməklə bağlı məlumatı özündə əks etdirən təlimatlar və vəsaitlər mövcuddur.. | BƏLİ<br>XEYR | |
| Mən səhiyyədə gender əsaslı cavab strategiyalara dair təlimatlandırılıram. | BƏLİ<br>XEYR | |
| Mən antenatal dövr və doğuş zamanı ataları/qayğı göstərən kişiləri necə cəlb etməklə bağlı strategiyalara dair təlimatlandırılıram. | BƏLİ<br>XEYR | |

## DOĞUM ÖNCƏSİ VƏ DOĞUŞ ZAMANI QULLUQDA ATANIN İŞTİRAKININ SÜRƏTLİ QİYMƏTLƏNDİRİLMƏSİ[17]

| MÜNASİBƏTLƏR VƏ TƏDBİRLƏR | | |
|---|---|---|
| **Suallar** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Təmsil etdiyim müəssisədə buna icazə varsa, qadından partnyorunun doğuşda iştirak etməsinə dair fikrini soruşuram və ataların bu prosesdə iştirakının əhəmiyyətini vurğulayıram.. | BƏLİ<br>XEYR | |
| Qadının razılığı olduğu təqdirdə və çalışdığım müəssisədə buna icazə varsa, qadının partnyorunu doğuşda iştiraka həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |

[17]Aşağıdakı mənbədən götürülərək uyğunlaşdırılmışdır: MenCare (no date) Guide for MenCare Partners on Training Health Providers. Male Engagement in Maternal, Newborn, and Child Health/Sexual and Reproductive Health (Ananın, yenidoğulmuşun, uşağın sağlamlığına/cinsi və reproduuktiv sağlamlığa qulluqda kişinin cəlb olunması).

| | | |
|---|---|---|
| Mən ataların/partnyorların doğuş zamanı anaya necə fiziki dəstək verə biləcəyinə dair təlimatverirəm (məsələn, masaj, yaxud tənəffüs texnikaları vasitəsilə). | BƏLİ<br>XEYR | |
| Əgər çalışdığım müəssisədə kişinin doğuşda iştirakına icazə verilmirsə və ya bunu qadın istəmirsə, mən kişiyə doğuş və ondan sonrakı dövrdə qadının vəziyyətinə dair məlumat verirəm | BƏLİ<br>XEYR | |
| Körpə ilə ana arasında dəri təmasının vacibliyini təşviq və izah edirəm. | BƏLİ<br>XEYR | |
| Körpə ilə ata arasında dəri təmasının vacibliyini təşviq və izah edirəm. | BƏLİ<br>XEYR | |
| Doğuşdan sonra mən ananı və atanı körpəni qucaqlarına almaları üçün həvəsləndirirəm, bu zaman körpəni ataya verərək onu qolları üzərində necə saxlamalı olduğunu izah edirəm.. | BƏLİ<br>XEYR | |
| Mən qadına və onun partnyoruna postnatal qayğı ilə bağlı təlimat və məlumat, həmçinin bu məlumatla bağlı hər hansı bir sualının olub-olmamasına dair sual verirəm. | BƏLİ<br>XEYR | |
| Həmkarlarıma ataların/partnyorların iştirakını fəal şəkildə təşviq etmələrini tövsiyə edirəm. | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Kişiləri doğuşa cəlb etmək üçün lazım olan bilik və bacarıqlara sahib olduğumu hiss edirəm. | BƏLİ<br>XEYR | |
| Mən kişilərin doğuş zamanı iştiraka cəlb edilməsinə dair milli siyasət və protokollar, habelə buna icazə verən və ya bunu qadağan edən milli çərçivə sənədləri ilə tanışam.. | BƏLİ<br>XEYR | |
| Mən atanın adının doğum haqqında şəhadətnamədə qeyd olunması da daxil olmaqla, ölkəmdə valideynliyin təyinatına dair qanunlar barədə məlumatlıyam. | BƏLİ<br>XEYR | |
| Mən mümkün olduğu qədər ataları da, anaları da uşaq doğulduqdan sonra müəyyən növ məzuniyyət götürməyə həvəsləndirirəm. | BƏLİ<br>XEYR | |
| **KLİNİKİ SİYASƏTLƏR VƏ PROTOKOLLAR** | | |
| **İşlədiyim müəssisə...** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Doğuş zamanı müşayiətə dairmilli qanun və qaydalara əməl edilir. | BƏLİ<br>XEYR | |
| Atanın/kişi partnyorun doğuşda iştirak edib-etməməsini qeyd etmək üçün qeydiyyat formalarından istifadə olunur. | BƏLİ<br>XEYR | |
| Ataların/kişi partnyorların doğuş prosesinə cəlb edilməsi ilə bağlı klinik təlimat və protokollar mövcuddur. | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Təmin edildiyi təqdirdə atalar və analara valideynlik məzuniyyəti (və ya atalıq və analıq məzuniyyəti) barədə məlumat verilir. | BƏLİ<br>XEYR | |
| Analar və atalara uşağı vətəndaşlıq vəziyyətinin qeydiyyat sistemində necə qeyd etdirmək və doğum şəhadətnaməsini necə əldə etməklə bağlı məlumat və izahat verilir. | BƏLİ<br>XEYR | |
| Müvafiq təlim və davamlı dəstək də daxil olmaqla zorakılıq qurbanlarının müəyyən edilməsi və onlara dəstəyin göstərilməsi ilə bağlı prosedurlar və vəzifələrdən ibarət protokollar mövcuddur. Zorakılığa məruz qalmış qadınlara ilkin təcili xidməti təmin edə biləcək heyət fəaliyyət göstərir. | BƏLİ<br>XEYR | |
| **KLİNİKİ SİYASƏTLƏR VƏ PROTOKOLLAR** | | |
| **İşlədiyim müəssisə...** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Ataları/kişi partnyorları doğuşda iştiraka cəlb etmək məqsədilə (misal üçün, doğuş otağında kişilərin ola bilməsi üçün kifayət qədər yer və məxfiliyin təmin edilməsi, atalar və ailə üçün gözləmə otaqlarının olması) müvafiq infrastruktur və məkan var.. | BƏLİ<br>XEYR | |
| Hamiləlik və doğuşla bağlı atalar, analar və ya xüsusilə atalar üçün tərtib edilmiş məlumatlandırma materialları ilə təmin edilir.. | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Məhz atalar üçün tərtib edilmiş məlumatlandırma materialları və ya həm analara, həm də atalara yönələn materiallar təmin edilir. | BƏLİ<br>XEYR | |
| Ataların/qayğı göstərən kişilərin surətinin əks olunduğu broşürlər, sənət əsərləri və ya divarda posterlər var.. | BƏLİ<br>XEYR | |
| Ataları/kişi partnyorları doğuşda iştiraka cəlb etməklə bağlı məlumatı özündə əks etdirən təlimatlar və vəsaitlər var. | BƏLİ<br>XEYR | |
| Mən səhiyyədə gender əsaslı cavab strategiyalara dair təlimatlandırılıram | BƏLİ<br>XEYR | |
| Mən antenatal dövr və doğuş zamanı ataları/qayğı göstərən kişiləri necə cəlb etməklə bağlı strategiyalara dair təlimatla təmin edilirəm. | BƏLİ<br>XEYR | |

## TİBB MÜƏSSİSƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR ANKET[18]

İşlədiyiniz tibb müəssisənizə hərtərəfli nəzər saldıqca, özünüzü ilk dəfə doğuşöncəsi qəbula gələn bir kişi kimi təsəvvür edin. Kişinin baxış bucağını nəzərdə saxlayaraq, aşağıdakı meyarlar əsasında müəssisənin ona necə görünəcəyini qiymətləndirin.

18Aşağıdakı mənbədən uyğunlaşdırılıb: IPPF and BMTƏF (2017). Global Sexual and Reproductive Health Service Package for Men and Adolescent Boys. (Kişilər və yeniyetmə oğlanlar üçün qlobal cinsi və reproduktiv sağlamlıq üzrə xidmətlər zərfi). London: IPPF and New York City: BMTƏF

| MÜƏSSİSƏYƏ YAXINLAŞMA İMKANI | | |
|---|---|---|
| **İşlədiyim müəssisə...** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Müəssisənin adı kişilər üçün də münasib görünürmü? | BƏLİ<br>XEYR | |
| Siz müəssisəyə yaxınlaşdıqda onun kişi və qadınların prenatal xidmət ehtiyacları baxımından uyğun yer olduğuna inanırsınızmı? | BƏLİ<br>XEYR | |
| Müəssisənin qapısında dayanan şəxs (təhlükəsizlik xidməti) prenatal xidmət axtarışında olan kişi və qadınlar üçün burada təmin edilən bütün xidmətlər barədə məlumatlıdırmı? | BƏLİ<br>XEYR | |

| GÖSTƏRİLƏN XİDMƏTLƏR | | |
|---|---|---|
| **Suallar** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Prenatal qayğı xidmətlərinin kişilər üçün də effektli olduğuna dair işarə və ya poster varmı? | BƏLİ<br>XEYR | |
| Kişilərin prenatal qayğı xidmətləri üçün partnyorları ilə birlikdə gələ biləcəyinə dair işarə və ya poster varmı? | BƏLİ<br>XEYR | |
| Bu işarə və ya poster kişilər üçün olan xidmətlərin növünə dair məlumatı özündə əks etdirirmi? | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Prenatal xidmətlər barədə kişilər üçün nəzərdə tutulmuş broşürlər və ya digər materiallar təmin edilirmi? | BƏLİ<br>XEYR | |
| Kişilərin cinsi və reproduktiv sağlamlıq üzrə partnyor kimi necə cəlb ediləcəyinə dair məlumatları əks etdirən hazır broşuralar və ya digər materiallarvarmı? | BƏLİ<br>XEYR | |
| Müəssisənin qeydiyya şöbəsinin əməkdaşı prenatal xidmət üçün müraciət etmiş kişi və qadınlar üçün burada təmin edilən bütün xidmətlər barədə məlumatlıdırmı? | BƏLİ<br>XEYR | |

**QEYDİYYAT/GÖZLƏMƏ SAHƏSİ**

| Suallar | B/X | "Xeyr" olarsa, görülməli tədbir(lər): |
|---|---|---|
| Bura kişilər üçün rahat bir mühitdirmi (yoxsa təkcə qadın və uşaqların ehiyaclarına uyğunlaşdırılıb)? | BƏLİ<br>XEYR | |
| Kişilər üçün maraqlı olacaqjurnallar, qəzetlər və ya digər vəsaitlərvarmı? | BƏLİ<br>XEYR | |
| Kişilərin antenatal qulluğa cəlb olunmasına yönələn broşuralar, kitabçalar, plakatlar və ya digər maarifləndirici materiallar varmı? | BƏLİ<br>XEYR | |

| | | |
|---|---|---|
| Məkantəmiz, səliqəli və səmərəli görünürmü? | BƏLİ<br>XEYR | |
| Məkanda başqa kişi müştərilər varmı? | BƏLİ<br>XEYR | |
| Heyət üzvləri arasında kişi işçilər varmı? | BƏLİ<br>XEYR | |
| Kişilər üçün sanitar qovşaq varmı? | BƏLİ<br>XEYR | |
| Əgər siz partnyorunuzla prenatal xidmət üçün müraciət edirsinizsə, hara gedəcəyinizə dair aydın məlumatla tanış ola bilirsinizmi? | BƏLİ<br>XEYR | |
| Heyət kişilərə qarşı nəzakətli və hörmətlə davranırmı? | BƏLİ<br>XEYR | |
| **XİDMƏT SAHƏLƏRİ VƏ MÜAYİNƏ OTAQLARI** | | |
| **Suallar** | **B/X** | **"Xeyr" olarsa, görülməli tədbir(lər):** |
| Bura kişilər üçün rahat bir mühitdirmi (yoxsa təkcə qadın və uşaqların ehiyaclarına uyğunlaşdırılıb)? | BƏLİ<br>XEYR | |
| Kişilərin prenatal qayğı prosesinə cəlb edilməsi üçün broşür, kitabça, poster və ya digər maarifləndirmə materialları ilə təmin edilibmi? | BƏLİ<br>XEYR | |
| Sizin fikrinizcə, burada xidmət təchizatçısı və ya məsləhətçi (psixoloq) ilə məxfi qaydada, kimsə sizi eşitmədən və ya görmədən danışa bilərsinizmi? | BƏLİ<br>XEYR | |

## SİYASƏT VƏ PROSEDURLAR

Aşağıdakı bölmədə tibb mütəxəssislərinə səhiyyə müəssisəsinin gender bərabərliyinə malik münasibətlər kontekstində kişilərin cəlb edilməsi öhdəliyini əks etdirən siyasət və prosedurlarının hazırlanması və ya yenidən baxılmasında kömək etmək üçün nümunəvi siyasət, habelə siyasət və icra ilə bağlı tövsiyələr təqdim olunur.

## TÖVSİYƏ VƏRƏQİ: DOĞUŞ ZAMANI KİŞİLƏRİN ROLU[19]

Beynəlxalq Planlı Valideynlik Federasiyasının (BPVF) aşağıda təqdim olunan "Kişilər və cinsi və reproduktiv sağlamlıq üzrə siyasət" kişilərin cəlb olunmasına dair nümunəvi siyasətdir və müəyyən düzəlişlərlə antenatal qulluğa kişilərin cəlb olunmasına tətbiq oluna bilər. O, olduğu kimi istifadə edilmək əvəzinə, istinad etmək üçün istifadə edilməlidir. Çünki o, müstəsna olaraq antenatal qulluqda kişilərin iştirakına köklənmir, onu cinsi və reproduktiv sağlamlıq kontekstində
nəzərdən keçirir.

**Kişilər və cinsi və reproduktiv sağlamlıq**

Giriş

1. BPVF, Federasiyanın Strateji Çərçivəsinin məqsəd və vəzifələrinə nail olmaq istiqamətində göstərdiyimiz səylərdə kişi və oğlanlarla müştəri, tərəfdaş və nümayəndələr qismində işləmək öhdəliyini götürmüşdür. Bu, bütün cinsi oriyentasiyalara sahib olan kişilərə, o cümlədən kişilərlə cinsi əlaqədə olan kişilərə (homoseksual, biseksual və transgender) və İİV-ə yoluxma statusunu nəzərə almadan şamil olunur.
2. Bu siyasət Federasiyanın kişilərin cinsi və reproduktiv sağlamlıq və hüquqlarının əhatə edilməsinə verdiyi böyük əhəmiyyəti, habelə qadın və qızlarla birgə kompleks cinsi və reproduktiv sağlamlıq xidmətlərinin təmin edilməsində bərabər partnyorlar kimi kişi və oğlanlarla işləmə zərurətini əks etdirir. Bu, bugünkü qlobal ictimai səhiyyə çağırışlarının qarşılanması üçün vacibdir və BPVF-nin Fəaliyyət Proqramına, qlobal inkişaf məqsədlərinə və geniş beynəlxalq elmi tədqiqatlarla uzlaşır.
3. Bu siyasət BPVF daxilində mövcud proqram və təşəbbüslərə əsaslanır və könüllülərə və heyət üzvlərinə bu proqram və təşəbbüslərin inkişaf etdirilməli və ya genişləndirilməli olduğu hallar üçün təlimatlar verir. Sənəddə xidmətlərin bu öhdəliyə uyğun olaraq icrasını təmin etmək üçün üzv assosiasiyalar və BPVF-nin katibliyi tərəfindən atılmalı bir sıra addımlar göstərilir. Federasiya daxilindəki bütün siyasət və proqramlar bu siyasəti nəzərə alaraq planlaşdırılmalı və müvafiq olaraq icra edilməli və qiymətləndirilməlidir.

[19] Aşağıdakı mənbədən uyğunlaşdırılıb: IPPF and BMTƏF (2017). Global Sexual and Reproductive Health Service Package for Men and Adolescent Boys. (Kişilər və yeniyetmə oğlanlar üçün qlobal cinsi və reproduktiv sağlamlıq üzrə xidmətlər zərfi). London: IPPF and New York City: BMTƏF

Sağlamlıqda gender bərabərliyinin təşviqində kişilərin rolu

4. Bu siyasət Federasiyanın kişilərin cinsi və reproduktiv sağlamlıq və hüquqlarının əhatə edilməsinə verdiyi böyük əhəmiyyəti, habelə qadın və qızlarla birgə kompleks cinsi və reproduktiv sağlamlıq xidmətlərinin təmin edilməsində bərabər partnyorlar kimi kişi və oğlanlarla işləmə zərurətini əks etdirir. Bu, bugünkü qlobal ictimai səhiyyə çağırışlarının qarşılanması üçün vacibdir və BPVF-nin Fəaliyyət Proqramına, qlobal inkişaf məqsədlərinə və geniş beynəlxalq elmi tədqiqatlarla uzlaşır.

1. Gender bərabərliyini həm kişilər, həm də qadınlar üçün aktual məsələ kimi təşviq etmək və daha bərabərhüquqlu cəmiyyətin hər kəs üçün faydalarını vurğulamaq.
2. Kişilərin gender bərabərliyini tam anlaması və təşviq etməsi və digərlərinin, xüsusilə qadın və gənclərin cinsi və reproduktiv sağlamlıq və hüquqlarını dəstəkləməsi üçün onların səlahiyyətləndirilməsinə yönələn kampaniyalar və maarifləndirmə proqramları həyata keçirmək və müsbət nümunə təşkil edən kişilərlə (rol modeli) işləmək.
3. Çox vaxt "mənfi" olan gender normaları və stereotipləri, homofobiya ilə mübarizə aparmaq və yaşam və sevginin daha bərabərhüquqlu yollarını təşviq etmək üçün hər iki cinslə işləmək.
4. Kişilər və oğlanlar arasında daha bərabərhüquqlu münasibətlərin və davranışların inkişafına dəstək göstərmək üçün qadın və qızlarla işləmək.

Oğlanlar və gənc kişilərin əhatə edilməsi

5. BPVF qızlar və gənc qadınlarla yanaşı, oğlanlar və gənc kişilərin spesifik zəiflikləri və cinsi və reproduktiv sağlamlıq ehtiyacları ilə bağlı tədbirlər görmək üçün kompleks cinsi və reproduktiv sağlamlıq xidmətləri və məlumatları vasitəsilə, bu qrupu əhatə etməyə səy göstərir. Federasiya həmçinin oğlanlar və gənc kişilər arasında sağlam cinsi sağlamlıq yanaşmalarını təşviq etmək üçün erkən müdaxilənin əhəmiyyətini qəbul edir. Federasiya mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

1. Mövcud cinsi və reproduktiv sağlamlıq proqramları, klinikalar və gənclər üçün uyğunlaşdırılmış xidmətlər çərçivəsində oğlan və gənc kişilərin xüsusi ehtiyaclarını qarşılamaq.
2. Oğlan və gənc kişilərin dəstəkdən yararlanmaq və prezervativlərdən istifadə etmək baxımından hörmət və özünəinam hiss etməsinə imkan verən müvafiq məlumatlar, məsləhətlər və təbliğat təmin etmək.
3. Gənc kişi və oğlanların həyat bacarıqlarını və şəxsi sağlamlıq, bərabərhüquqlu münasibətlər və ənənəvi gender stereotiplərinin mənfi təsirləri barədə təsəvvürlərini artırmaq məqsədilə, hərtərəfli cinsi təhsil və həmyaşıdlar arasında maarifləndirmə proqramları vasitəsilə gənc kişilər və oğlanlarla işləmək

Kişilər İİV və digər cinsi yolla yoluxan infeksiyaların qarşısının alınması prosesində tərəfdaş kimi

6. BPVF inanır ki, üzv assosiasiyaların proqram və xidmətləri kişilərin və oğlanların İİV epidemiyasının aradan qaldırılmasında və digər cinsi yolla ötürülən infeksiyaların qarşısının alınmasında tərəfdaş kimi vacib rolunu qəbul etməli və onların cəlb olunmasına şərait yaratmağa səy göstərməlidir. BPVF mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

    1. Kişilərin könüllü konsultasiya və müayinə xidmətlərinə çıxışını və onlardan istifadəsini və onlar tərəfindən zəruri müalicə, qulluq və dəstəyin qəbulunu artırmaq.
    2. Müsbət nümunə təşkil edən (rol modeli) şəxslərin (xüsusilə İİV-lə yaşayanlar) iştirakını təşviq edərək digər kişi və oğlanların prezervativlərdən istifadəsini və İİV və cinsi yolla ötürülən infeksiyalara görə müayinə olunmasını stimullaşdırmaq.
    3. İİV-lə yaşayan şəxslərin, onların partnyorlarının və ailə üzvlərinin cinsi və reproduktiv sağlamlıq və müsbət profilaktik ehtiyacları ilə bağlı tədbirlər görmək, o cümlədən tərəflərindən birinin İİV-ə yoluxduğu münasibətlərdə kişilərə dəstək göstərmək.
    4. Anadan uşağa yoluxmanın qarşısının alınmasında kişi partnyorların cəlb olunmasına dəstək
    5. İİV və cinsi yolla ötürülən infeksiyalarla əlaqəli stiqma və ayrı-seçkiliyin azaldılmasına yönələn strategiyalara kişiləri cəlb etmək.

Kişilər təhlükəsiz abort xidmətlərinin təmin edilməsi prosesində tərəfdaşlar kimi

7. BPVF qəbul edir ki, kişilər və oğlanlar partnyorlarının təhlükəsiz abort xidmətlərinə çıxışının artırılmasında müəyyən rol oynayır və bununla analar arasında təhlükəli abortla əlaqəli xəstələnmə və ölüm göstəricilərində azalmaya töhfə verir. Kişi və oğlanlarla işə bu yanaşmanın təməlində hər zaman qadınların seçmək hüququna dəstək dayanmalıdır. Federasiya mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

    1. Kişilər üçün abort mövzusunda və təhlükəsiz abort xidmətlərinə çıxışı artırmaq üçün tədbirlərə necə dəstək göstəriləcəyinə dair spesifik məlumat və maarifləndirmə təmin etmək.
    2. Qanunvericiliyə dəyişiklikləri təşviq etmək, stiqma və ayrı-seçkiliyi aradan qaldırmaq və təhlükəsiz abort xidmətlərinə çıxışdakı maneələri aradan qaldırmaq üçün kişilər və oğlanlarla işləmək.
    3. Qadının istəyindən asılı olaraq, kişilərin və oğlanların abortdan əvvəl və sonrakı konsultasiya sessiyalarında iştirakına imkan yaratmaq və təşviq etmək.

Kişilər xidmətlərə çıxışın yaxşılaşdırılması prosesində tərəfdaş kimi

8. BPVF maneələri azaltmaq və cinsi və reproduktiv sağlamlıqla bağlı məlumatlara, cinsi təhsil və yüksək keyfiyyətli ailə planlaşdırılması xidmətlərinə çıxışın artırılmasında kişilərlə işin vacibliyini qəbul edir. Buraya kişiləri qadınların və qızların cinsi və reproduktiv sağlamlığının, rifahının və hüquqlarının təşviqindəki öhdəliklərə həssaslaşdırmaq daxildir. BPVF mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

1. Kişilərin məsuliyyətini və qadınların, kişilərin və yeniyetmələrin cinsi və reproduktiv sağlamlıq ehtiyaclarını və hüquqlarını təşviq edən məlumatları və maarifləndirməni gücləndirmək.
2. Cinsi davranışlarına görə bütün məsuliyyəti öz üzərlərinə götürmələrini və partnyorunun və ailəsinin sağlamlığını, rifahını və hüquqlarını qorumağa təşviq etmək üçün kişilərlə çalışmaq.
3. Gender bərabərliyi ilə bağlı bir çərçivədə, kişilər və qadınlar arasında xüsusilə kontrasepsiya və digər təhlükəsiz cinsi əlaqə üsullarından istifadə ilə əlaqədar birgə qərar qəbuletmə və ortaq məsuliyyəti təşviq etmək.

<u>Kişilər ata kimi</u>

9. IPPF, kişilərin ata kimi oynadığı mühüm rolu təşviq edir. Federasiya, gender bərabərliyi ilə müşayiət olunan atalığın inkişafını və təşviqini dəstəkləyir və ataların təhlükəsiz analıq və doğuşöncəsi qayğıda, qadınların və yeniyetmələrin fiziki və psixoloji rifahının yüksəldilməsindəki vacib rolunu qəbul edir. Federasiya mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

1. Atalara spesifik dəstək, maarifləndirmə və məlumat təmin etmək və ailənin sağlamlığının yaxşılaşdırılmasında və doğuşdan əvvəl və sonrakı ölüm risklərinin azaldılmasında məsuliyyətli atalığın rolunu təşviq etmək.
2. Valideyn qismində kişilərlə işləməyin həm də digər cinsi və reproduktiv sağlamlıq ehtiyaclarının və məsələlərinin həlli üçün mühüm fürsət olduğunu vurğulayaraq, bütün formalarda atalığı qəbul etmək.
3. Ailə öhdəliklərinin və hamiləlik dövründə dəstəklə bağlı narahatlıqların daha çox bölüşülməsinə kömək etmək üçün dəstək və məsləhət xidmətləri təmin etmək.

<u>Kişilər gender əsaslı zorakılığın aradan qaldırılması prosesində tərəfdaş kimi</u>

10. Federasiya gender əsaslı zorakılığın azaldılmasına kişilərin cəlb olunmasına səy göstərir. Federasiya inanır ki, siyasətlər, proqramlar, xidmətlər və kampaniyalar bu zorakılığın aradan qaldırılması və qarşısının alınmasında kişilərin rolunu birbaşa vurğulamalıdır. Bu cür yanaşma qadınları nəzərə almağa davam etməli, onların səlahiyyətlərinin artırılmasını təşviq etməlidir. BPVF mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

1. Qadına qarşı zorakılığın kişilərə və oğlanlara və ailələrinə də mənfi təsir göstərdiyini və bu zorakılığa son qoyulmasının hər kəsin sağlamlığı və rifahına fayda gətirəcəyini vurğulamaq.
2. Kişilərin zorakılığa qarşı gender bərabərliyinin prinsipləri ilə dəqiq uzlaşan fəallığını dəstəkləmək.
3. Zorakılığın, xüsusilə də yüksək riskli mühitlərdə kişilərə və oğlanlara qarşı zorakılıq və şiddətin təməlində dayanan səbəbləri və təsirləri əhatə edən zorakılıqla mübarizə strategiyalarını təşviq etmək.

Kişilərin cinsi və reproduktiv sağlamlıqla bağlı ehtiyacları və hüquqları

11. Federasiya proqramların və xidmətlərin kişilər və oğlanların cinsi və reproduktiv sağlamlıqla bağlı ehtiyaclarını və hüquqlarını da müəyyənləşdirməsini və əhatə etməsini təmin etməyə səy göstərir. BPVF inanır ki, bu, həm kişilərin və oğlanların öz sağlamlıqlarını yaxşılaşdırması üçün, həm də kişiləri başqalarının, xüsusən qadınların və yeniyetmələrin cinsi və reproduktiv sağlamlığını yaxşılaşdırmağa stimullaşdırmağın vacib bir yolu kimi zəruridir. Federasiya mümkün hallarda aşağıdakıları öhdəsinə götürür:

1. Spesifik olaraq kişilərin və oğlanların cinsi və reproduktiv sağlamlıqla bağlı ehtiyacları və problemlərini həll etmək üçün proqramlar və xidmətlər yaratmaq və ya genişləndirmək.
2. Mövcud cinsi və reproduktiv sağlamlıq siyasətlərində, proqramlarında və tədbirlərində kişilərin və oğlanların daha geniş iştirakının fəal şəkildə təşviq edilməsini və onların xidmətlərə çıxışının asanlaşdırılmasını təmin etmək üçün onlara yenidən baxmaq.
3. Kişiləri öz cinsi və reproduktiv sağlamlığına daha çox qayğı göstərməyə stimullaşdırmaq üçün müsbət nümunə təşkil edən kişi rol modellərindən istifadəni təşviq etmək.
4. Kişilər arasında onların partnyorlarının, sevgililərinin və uşaqlarının cinsi və reproduktiv sağlamlıqla hüquqları və ehtiyacları barədə təsəvvürləri yaxşılaşdırmaq.

Siyasətin icrası

Bu siyasətə uyğun olaraq, BPVF-nin Katibliyi və üzv assosiasiyalar öz adekvat strategiyalarını hazırlamaq üçün könüllülər və işçilər arasında məlumatlılığı artırmağa çağırılır. Daha dəqiq desək:

12. Üzv assosiasiyalar aşağıdakılara səy göstərməlidir:

1. Bu siyasətin müvafiq sahələrinə əsaslanaraq, mövcud siyasət və proqramlarda kişilər və oğlanlarla işləməyə və onların cinsi və reproduktiv sağlamlıq ehtiyaclarının həllinə xüsusi diqqət yetirmək.
2. Heyətin, xidmət təminatçılarının və təhsil işçilərinin kişi və oğlanlarla, xüsusilə də ən həssas qruplarla işləmək üçün potensialını, bacarıqlarını və münasibətlərini təkmilləşdirmək üçün təlim və dəstək təmin etmək.
3. Kişilər və oğlanlarla işləyən digər təşkilatlarla strateji tərəfdaşlıqlar (müvafiq yönləndirmələrə şərait yaratmaq üçün əlaqələr daxil olmaqla) qurmaq və saxlamaq.
4. Bu mövzuda millət vəkilləri və digər qərar qəbul edən şəxslərlə işləmək.
5. Kişiləri və oğlanları işimizdən kənarda qoymayacaq ifadələrdən istifadə etmək.
6. Bu siyasətə uyğun olaraq, proqramları və fəaliyyətləri nəzərdən keçirmək və/və ya planlaşdırmaq, icra etmək və qiymətləndirmək.

13. Mərkəzi ofis və regional ofislər aşağıdakılara səy göstərəcək:

1. Bu proqram və xidmətlərin inkişafına dəstək vermək və mümkün olduqda üzv assosiasiyalara texniki dəstək vermək. BPVF-nin Mərkəzi və Regional ofisləri də bu işin həyata keçirilməsi və genişləndirilməsi üçün maliyyə vəsaitləri toplamağa səy göstərəcəkdir.
2. Müvafiq BPVF standartlarının və təlimatlarının (kliniki və qeyri-kliniki) yuxarıdakı siyasəti əks etdirməsini təmin etmək.
3. Federasiyanın əsas fəaliyyəti çərçivəsində kişilərə və oğlanlara daha güclü bir diqqət ayırmaq üçün strategiyalar, o cümlədən strateji çərçivənin bu aspekti üçün monitorinq və qiymətləndirmə və gender təhlili çərçivəsi hazırlamaq.
4. Bu mövzuda işləyən təşkilatlarla əlaqələr qurmaq və/və ya inkişaf etdirmək.

BPVF İdarəetmə Şurası tərəfindən qəbul edildiyi kimi, May 2008.

## ÜST-ÜN SİYASƏT VƏ TƏCRÜBƏLƏRLƏ BAĞLI TÖVSİYƏLƏRİ

2015-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ana və yenidoğulmuşların sağlamlığı üçün kişilərin cəlb olunması üzrə tədbirlərə dair tövsiyələrini dərc etdi. Bu tədbirlər hamiləlik dövründə qadınlar üçün qulluğun asanlaşdırılması və dəstəklənməsi, qadınlar və yenidoğulmuşlara evdə qulluq təcrübələrinin yaxşılaşdırılması və hamiləlik, doğuş və zahılıq dövründə səriştəli xidmətdən istifadənin yaxşılaşdırılması üçün nəzərdə tutulur.

1. Ana və yenidoğulmuşların sağlamlığı üçün kişilərin cəlb olunma strategiyaları başlıca olaraq qadınların özünün və uşaqlarının sağlamlığı üçün tibbi qayğı səylərini və qərar qəbulunu dəstəkləməyə yönəlməlidir. Bu strategiyaların icrası qadınların özünün və uşaqlarının sağlamlığı üçün tibbi xidmətdən istifadə səylərində və qərar qəbulunda müstəqilliyini azaltmamalıdır. Kişiləri qərar qəbul edən tərəflər kimi təsvir edən gender stereotiplərini möhkəmləndirməkdən çəkinmək zəruridir.

2. Bundan əlavə, kişilərin cəlb olunmasına dair strategiyalar gender münasibətlərinin köklü dəyişilməsinə yönələn proqramların (məs. bərabərhüquqlu gender normalarını və qadınların səlahiyyətlərinin artırılmasını təşviq edən proqramlar) icrası istiqamətində digər səylərlə əlaqələndirilməli və kişilərin partnyor və ata kimi müsbət rolunu təşviq etməlidir.

3. Zərər-fayda balansını nəzərdən keçirdikdə, balans, tətbiq olunacaq strategiya və mühitdən asılıdır. İntim partnyor zorakılığının yüksək olduğu mühitlərdə kişilərin müəssisələrdə cəlb olunmasına dair strategiyalar vasitəsilə kişilərin cəlb olunması qadınların təhlükəsizliyinə və məxfiliyinə xələl gətirilməməsinə zəruri diqqət ayırmaqla ehtiyatlı şəkildə icra edilməlidir.

4. Zərərlər/risklər tibb mütəxəssisləri və proqram əməkdaşlarına cütlüklər arasında bərabərhüquqlu qərar qəbulunu təşviq edən və qadın hüquqlarını və müstəqilliyini təmin edən, gender aspektlərini nəzərə alan və qadın hüquqlarına və müstəqilliyinə mənfi təsirlərin yaxından monitorinqini və qiymətləndirilməsini aparan proqramların hazırlanması üzrə hazırlıq keçirilməsini nəzərdə tutan icra yanaşmaları vasitəsilə azaldıla bilər.

5. Qadınların dəyər və seçimlərindəki müxtəlifliyi nəzərə almaq vacibdir. Proqramlar keyfiyyət yönümlü tədqiqatlar və qadınlarla dialoq aparıldıqdan sonra hazırlanmalıdır.

6. Kişi partnyorun qadını antenatal qulluq üçün müşayiət etməyə dəvət olunduğu cütlüklər üçün konsultasiya və ya müəssisələrdəki müdaxilələri nəzərdən keçirərkən, qadının sərbəst razılığını almaq və partnyorunun necə cəlb olunmasını istədiyini və onun iştirakının aspektlərini təfərrüatlı şəkildə müzakirə etmək son dərəcə vacibdir. Qulluğun ehtiyaclara uyğunlaşdırılması və təfərrüatlara diqqət yetirilməsi vacibdir. Bəzi qadınlar öz partnyorlarının cəlb olunmasını istəyəcəkdir və onlara dəstək göstərilməlidir. Digər qadınlar isə öz partnyorlarının cəlb olunmasını istəmir və bu qərara hörmət etmək lazımdır. Qadın öz kişi partnyorunun cəlb olunmasını istəmirsə və ya onunla birgə cəlb oluna bilmirsə, kişinin iştirakı xidmətlərin göstərilməsi üçün şərt kimi çıxış etməməlidir. Yəqin ki, icra ilə bağlı qeyd olunmuş ən vacib məsələ kişini iştirak etməyə dəvət etməzdən əvvəl onun iştirakına dair qadının icazəsini, razılığını və mövqeyini əldə etmək zərurətidir.

7. Hamilə qadınların, o cümlədən partnyoru olmayan qadınların münasibətlərinin və ailə vəziyyətinin müxtəlifliyi kişilərin cəlb olunmasına yönələn tədbirlərin təşviqində nəzərə alınmalıdır.

8. Kişilərin hamiləlik, doğum və zahılıq müddətində kliniki qayğıda iştirakı qadınların razılığı və ya istəyinə əsaslanmalıdır. Qadınlarla onlara göstərilən qulluğun hansı aspektlərinin məxfi saxlanılması barədə təkbətək məsləhətləşmə aparılmalıdır. Bu, xüsusilə potensial olaraq həssas olan kliniki xidmətlərə (məsələn, doğuşdan sonrakı ailə planlaşdırılması) aiddir.

9. Tibb müəssisələri kişilər üçün də uyğunlaşdırılmalı, səhiyyə sistemləri hamiləlik, doğuş və zahılıq müddətində qadınla eyni dərəcədə kişilərlə işə istiqamətlənməlidir. Bununla belə, qadınlar və yenidoğulmuşların keyfiyyətli qayğıya çıxışı kişilərin cəlb olunması və iştirakından asılı olmamalıdır.

10. Bir çox səhiyyə xidmətlərinin təşkilində kişilərin öz partnyorlarını müşayiət etməsi nəzərə alınmır. Tibb xidməti təminatçılarının gender aspektlərini nəzərə alan yanaşmalar vasitəsilə kişilərlə və cütlüklərlə işləmək üçün fiziki infrastrukturu və potensialı ilə bağlı tədbirlər görülməlidir.

BİRLİKDƏ GENDER STEREOTİPLƏRİ VƏ GENDER ƏSASLI ZORAKILIĞA QARŞI: HAMİLƏLİK VƏ DOĞUŞ ZAMANI KİŞİLƏRİN CƏLB EDİLMƏSİ ÜZRƏ RESURS KİTABÇASI

#eu4genderequality